24 fevral 2023 №15 (1984)

www.medeniyyet.az

# MƏDƏNİYYƏT

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri

Qəzet 1991-ci ilin yanvarından çıxır

## Mədəniyyət Nazirliyinin regional idarələri yenidən təşkil edilib

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin strukturuna daxil olan regional mədəniyyət idarələri yenidən təşkil edilib. Bununla bağlı "Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin strukturunun təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 29 mart tarixli sərəncamında dəyişiklik olunub.

Fevralın 23-də Prezident İlham Əliyevin imzaladığı sərəncama əsasən, Azərbaycan Respublikasının iqtisadi rayonlarının yeni bölgüsünə (2021) uyğun olaraq, nazirliyin 12 regional idarəsi yaradılıb. Nazirlər Kabinetinə bu sərəncamdan irəli gələn məsələləri həll etmək tapşırılıb.

səh. 2

## Xocalı: 26 fevraldan 31 il ötsə də...

### Unutmuruq, əbədiyyən xatırlayacağıq...

Tariximizin ən faciəli səhifəsi – Xocalı soyqırımı 31 yaşına qədəm qoyur. Erməni silahlı dəstələrinin 1992-ci il fevralın 26-na keçən gecə Xocalı şəhərində törətdiyi soyqırımı bizim acımız olmaqla yanaşı, eyni zamanda dünya tarixində insanlıq əleyhinə ən amansız cinayətlərdən biri, bəşəriyyətin ləyaqət lövhəsinə həkk olunan qara ləkədir.

Xocalıda bir gecənin içində 613 nəfər, o cümlədən 106 qadın, 63 uşaq, 70 qoca xüsusi qəddarlıqla qətlə yetirilib. Azərbaycanlı olduqları, doğma yurdda yaşamaq istədikləri üçün. 8 ailə bütünlüklə məhv edilib. 25 uşaq hər iki valideynindən, 130 uşaq valideynlərinin birindən məhrum olub, 487 nəfər ağır yaralanıb. 1000-dən çox Xocalı sakini erməni əsirliyinin dəhşətini yaşayıb.

Bu müsibətin milli dərd kimi acısı böyükdür. Amma qisas qiyamətə qalmadı. Xocalıda qurban gedənləri geri qaytara bilməsək də, 2020-ci ilin Vətən müharibəsindəki tarixi Zəfər bizim üçün Xocalının da qisası oldu.

O qurbanların xatirəsinə ucaldılmış "Ana harayı"nda yağdan alınan qisasın da səsi var. Artıq üçüncü ildir bəşəri kədərin abidəsi önünə milli ruhumuzu dirçəldən Zəfərin təsəllisi ilə gedirik...

Xocalının kədər izi isə qan yaddaşımızdan heç vaxt silinməyəcək. Unutmuruq, əbədiyyən xatırlayacağıq...




## İtaliya Senatında Xocalı soyqırımı qurbanlarının xatirəsi anılıb



Xocalı soyqırımının ildönümü ilə əlaqədar İtaliya Senatında "Xocalı faciəsindən 31 il sonra barışıq və sülh quruculuğu naminə ədalətin əhəmiyyəti" mövzusunda konfrans keçirilib.

Senatın Avropa İttifaqı siyasəti komissiyasının sədri Ciuliomaria Terzi Sant'Aqata konfransda açılış nitqi ilə çıxış edərək bildirib ki, 1992-ci ilin 26 fevralında törədilmiş Xocalı faciəsi insanlıq əleyhinə ən amansız cinayətlərdən biridir. Diqqətə çatdırılıb ki, faciədən 28 il sonra, 2020-ci ildə İkinci Qarabağ müharibəsi baş verib və Azərbaycan, Ermənistan və Rusiya liderləri tərəfindən imzalanmış üçtərəfli Bəyanatla Ermənistan-Azərbaycan münaqişəsinə son qoyulub.

Senator C.Terzi Avropa İnsan Hüquqları Məhkəməsinin Xocalı ilə bağlı 2010-cu il 22 aprel tarixli qərarını səsləndirərək beynəlxalq hüquq və ədalət naminə Xocalı faciəsinin yad olunmasının vacibliyini qeyd edib.

davamı səh. 2-də

## "Tarın pərdələrini düzənə qurban..."



Azərbaycan tarı... Onun sədası əsrlərdir qəlblərimizi oxşayır, ruhumuza sığal çəkir. Əbəs deyil ki, tarı "Azərbaycan milli musiqisinin təmiz nəfəsi" kimi səciyyələndiriblər.

Mərhum musiqişünas Məcnun Kərimov tarı belə tərif edib: "Tar Azərbaycan simli musiqi alətləri arasında texniki və dinamik imkanlarına görə ən mükəmməl çalğı alətidir. Azərbaycan tarı həm xarici görkəmi, həm səs tembri, həm də ifa tərzinə görə başqalarından fərqlənir, daha mükəmməl hesab edilir. "Tar" qədim türk sözü olub, Azərbaycan dilində bu gün də bir çox mənalarda işlədilir. Məsələn, "tarım çəkmək", "tarma", "tar etmək" və s. Böyük bəstəkar və pedaqoq Üzeyir Hacıbəyli Azərbaycan tarının texniki ifaçılıq və səslənmə imkanlarına istinadən yazırdı: "Tar Şərq musiqi təhsilini artıra bilən alətlərdən ən qiymətlisi və ən mühümüdür".

Rusiyalı musiqi alətləri tədqiqatçısı V.Vertkov isə birmənalı şəkildə tarın vətəninin Azərbaycan olduğunu bəyan edir: "Tar Xəzər dənizinin gündoğan və günbatan türk bölgələrində tarixən çox geniş yayılmışdı. Azərbaycanlılar tar çalmaqla sənətin ən yüksək səviyyəsinə yüksəlmişlər. Ancaq Azərbaycan tarlarına sahib çıxmaq istəyənlər də vardır...".

davamı səh. 5-də

## TÜRKSOY-un 30 illiyi münasibətilə inşa müsabiqəsi

Bu il Türk dünyasının mədəniyyət diplomatiyası sahəsində fəaliyyət göstərən ilk qurumu olan Beynəlxalq Türk Mədəniyyəti Təşkilatı – TÜRKSOY-un yaranmasının 30 illik yubileyidir. Bu münasibətlə il ərzində həm qərargahı Ankarada yerləşən təşkilatda, həm də üzv ölkələrdə müxtəlif tədbirlər keçiriləcək.

Əlamətdar yubileylə bağlı TÜRKSOY-un təşkilatçılığı ilə qurucu ölkələri əhatə edən "Türk dünyasının qızıl körpüsü – TÜRKSOY" mövzusunda inşa müsabiqəsi elan olunub.

səh. 3

## Milli Kitabxanada Əhməd Cavadla bağlı nəşrlərin təqdimatı

Azərbaycanın istiqlal şairi Əhməd Cavadın (1892-1937) anadan olmasının 130 illiyi ilə əlaqədar Milli Kitabxana tərəfindən "Əhməd Cavad. Biblioqrafiya", Beynəlxalq Türk Mədəniyyəti Təşkilatı – TÜRKSOY tərəfindən isə "Əhməd Cavaddan seçmə şeirlər" kitabları nəşr etdirilib.

Fevralın 22-də Milli Kitabxanada Mədəniyyət Nazirliyi və TÜRKSOY-la birlikdə hər iki nəşrin təqdimatı keçirilib. Tədbirdə TÜRKSOY-un baş katibi Sultan Raev də iştirak edib.

Milli Kitabxananın direktoru professor Kərim Tahirov giriş sözündə hər iki nəşrin əhəmiyyətini qeyd edib. Diqqətə çatdırıb ki, kitabxana tərəfindən tərtib olunan biblioqrafiya görkəmli şair haqqında son vaxtlara qədər çap olunan bütün materialları əhatə edir.




Milli Kitabxananın TÜRKSOY-la 2006-cı ildən etibarən əməkdaşlıq etdiyini deyən K.Tahirov bildirib ki, bu ənənə davam etməkdədir.

TÜRKSOY-un baş katibi Sultan Raev rəhbərlik etdiyi təşkilatın Türk dünyasının bir çox mədəniyyət, ədəbiyyat xadimlərinin yaradıcılığının işıqlandırılması istiqamətində reallaşdırdığı layihələrdən danışıb. O, Azərbaycan şeir sənətinin görkəmli nümayəndələrindən olan, qiymətli əsərlər müəllifi Əhməd Cavad haqqında kitabların hazırlanmasında əməyi keçən hər kəsə təşəkkür edib.

davamı səh. 3-də

## Beynəlxalq Ədalət Məhkəməsi: Azərbaycan öhdəliyinə sadiqdir

Ermənistanın Beynəlxalq Ədalət Məhkəməsi qarşısında irəli sürdüyü məsələlərdən biri də bütün şəxslərin, nəqliyyat vasitələrinin və yüklərin tam dayanıqlı və azad şəkildə Laçın yolundan keçməsi ilə bağlı Azərbaycana öhdəliyin müəyyən edilməsinə dair olub. Bununla bağlı da mövqeyimiz bildirilib.

Bunu Azərbaycanın xarici işlər nazirinin müavini Elnur Məmmədov "İrqi ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında" Konvensiyanın tətbiqi ilə bağlı məhkəmə işləri üzrə Beynəlxalq Ədalət Məhkəməsinin son qərarına dair keçirdiyi brifinqdə bildirib.

davamı səh. 2-də

## Zəlzələ qurbanlarının sayı 43 min 556 nəfərə çatıb



Türkiyədə əsrin fəlakəti sayılan 6 fevral zəlzələlərinin acı tablosu daha da böyüyüb. Fevralın 22-də gecə saatlarında Türkiyənin Təbii Fəlakət və Fövqəladə Halların İdarəedilməsi Agentliyi – AFAD həlak olanların sayının 43 min 556 nəfərə çatdığını bildirib.

Zəlzələ zonasında dağıntıların təmizlənməsi davam edir və çökmüş binalar altından çıxarılan cəsəd sayı hər ötən gün artır. Xatırladaq ki, bu məlumatdan bir gün öncə, 21 fevralda ölü sayı 42 min 310 nəfər göstərilmişdi.

Fəlakət nəticəsində ev-eşiyindən olan, 1,3 milyona yaxın insan çadır şəhərciklərində, modul evlərdə və müxtəlif vilayətlərdə yataqxanalarda, turistik təsislərdə yerləşdirilib.

Zəlzələ zonasında ağır və orta zədəli olduğu təsbit edilən və söküləcək bina sayı isə 160 mini keçib.

## İstanbulda Türk Dövlətləri Təşkilatının toplantısı

Fevralın 23-də İstanbulda Türk Dövlətləri Təşkilatının (TDT) Yüksək Vəzifəli Məmurlar Komitəsinin 39-cu toplantısı keçirilib. Bu barədə TDT-nin mətbuat xidməti məlumat yayıb.

Toplantıda əvvəlcə Türkiyədə baş verən zəlzələlərdə həyatını itirənlərin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Türk dünyasının Türkiyədəki soydaşlarının dərdinə şərik olduğunu deyən TDT-nin baş katibi səfir Kubanıçbek Ömuraliyev zəlzələ bölgəsinə səfəri barədə məlumat verib. Bu günlər təşkilatın üzv və müşahidəçi ölkələrinin Türkiyə xalqı və dövləti ilə sarsılmaz həmrəylik nümayiş etdirdiyi vurğulanıb.

Qeyd edək ki, hazırda TDT-də keçici sədr (dönəm başqanı) Özbəkistan Respublikasıdır və TDT Yüksək Vəzifəli Məmurlar Komitəsinin 39-cu iclasına da, təşkilatın yeni Nizamnaməsinə uyğun olaraq, bu ölkə sədrlik edib.

İclasda zəlzələ bölgəsindəki son vəziyyətlə yanaşı, TDT-nin digər prioritet gündəm bəndləri, o cümlədən ötənilki Səmərqənd Zirvə toplantısı qərarlarının icrası və mart ayında Ankarada keçiriləcək Zirvə görüşünə hazırlıq məsələləri müzakirə olunub.

İclasda TDT-yə üzv ölkələrin Xarici İşlər nazirliklərinin nümayəndələri iştirak ediblər.

## "Xocalı şəhidləri – 613" kitabı təqdim olunub




Xocalı soyqırımının 31-ci ildönümü ərəfəsində Heydər Əliyev Mərkəzində "Xocalı şəhidləri – 613" kitabının təqdimatı keçirilib.

səh. 2

### Soyqırımı qurbanlarının xatirəsinə ithaf



səh. 3

### Ağsu rayonundakı mədəniyyət müəssisələrinə baxış keçirilib

səh. 4



### Tamaşına kar olanlar tələbə-aktyorların təqdimatında

səh. 5

№15 (1984)
24 fevral 2023
www.medeniyyet.az

# Sankt-Peterburqda anım tədbiri

Rusiyanın Sankt-Peterburq şəhərində Xocalı soyqırımının 31-ci ildönümü ilə əlaqədar anım mərasimi keçirilib.

Diasporla İş üzrə Dövlət Komitəsindən bildirilib ki, Lensovet adına Mədəniyyət Sarayında gerçəkləşən tədbir "Sankt-Peterburq şəhəri və Leninqrad vilayəti üzrə azərbaycanlıların milli-mədəni muxtariyyəti" şəhər ictimai təşkilatı tərəfindən təşkil edilib.

Öncə Xocalı soyqırımı qurbanlarının və Türkiyədəki dəhşətli zəlzələ nəticəsində həlak olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib, ruhlarına dualar oxunub.




"Sankt-Peterburq şəhəri və Leninqrad vilayəti üzrə azərbaycanlıların milli-mədəni muxtariyyəti" şəhər ictimai təşkilatının sədri Vaqif Məmişov, Azərbaycanın Sankt-Peterburqdakı baş konsulu Sultan Qasımov və Türkiyənin Sankt-Peterburqdakı baş konsulu Özgün Talu çıxış ediblər.

Xocalı soyqırımı haqqında danışan natiqlər qeyd ediblər ki, məhz azərbaycanlı olduqlarına görə həmin müdhiş gecə aralarında 106 qadın, 63 uşaq, 70 qoca olmaqla 613 dinc sakin qətlə yetirilib. Diqqətə çatdırılıb ki, Azərbaycan xalqı heç vaxt Xocalı faciəsini unutmayacaq.

Heydər Əliyev Fondunun dəstəyi ilə "Xocalıya ədalət!" layihəsi çərçivəsində hazırlanmış videoçarx təqdim olunub.

Anım tədbiri klassik musiqinin və şeirlərin səsləndirilməsi, Xocalı hadisələri ilə bağlı şahidlərin kədərli hekayələrinin oxunması ilə davam edib.

Tədbir iştirakçılarına Heydər Əliyev Fondu tərəfindən hazırlanmış Xocalı soyqırımı haqqında broşürlər, döş nişanları və "Sonsuz dəhliz" filminin diskləri hədiyyə olunub.

# TÜRKSOY və Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondu arasında əməkdaşlıq müzakirə olunub

Bakıda səfərdə olan TÜRKSOY-un baş katibi Sultan Raev fevralın 23-də Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti Günay Əfəndiyeva ilə görüşüb.

Görüşdə türk xalqları arasında dostluğun möhkəmlənməsində Türk dünyası təşkilatları tərəfindən göstərilən səylərin önəmindən, Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondu və TÜRKSOY-un bu yöndə fəaliyyətindən söz açılıb. "Şuşa – 2023: Türk dünyasının mədəniyyət paytaxtı" ili çərçivəsində birgə təbirlərin keçirilməsi məsələsi müzakirə olunub.



Ümummilli lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş Türk Dünyası Mədəniyyət Forumu ilə bağlı görülən hazırlıq işlərindən də bəhs edilib. Beynəlxalq Türk Dilləri Forumu və digər layihələrin keçirilməsi, eləcə də Türk dünyasının böyük şəxsiyyətlərinin yubileylərinin qeyd olunmasında əməkdaşlığın vacibliyinə toxunulub.

# "Xocalı şəhidləri – 613" kitabının təqdimatı

Xocalı soyqırımının 31-ci ildönümü ərəfəsində fevralın 23-də Heydər Əliyev Mərkəzində "Xocalı şəhidləri – 613" kitabının təqdimatı keçirilib.



Kitabda 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Ermənistan silahlı qüvvələrinin törətdiyi soyqırımı zamanı həlak olan 613 nəfərin hər biri haqqında məlumat verilir.

Müəllif Dürdanə Ağayeva bildirib ki, kitab Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə həyata keçirilən "Xocalıya ədalət!" beynəlxalq kampaniyası çərçivəsində nəşr olunub.

Dürdanə Ağayeva özü də bu faciənin qurbanlarındandır. 1972-ci ildə Xocalıda anadan olan Dürdanə Ağayeva faciə zamanı ermənilər tərəfindən girov götürülüb, 8 gün erməni girovluğunda qalıb. O, erməni girovluğunda ağlasığmaz işgəncələrə məruz qaldığını, erməni vəhşiliyinin və vandalizminin, xüsusi amansızlıqla törədilmiş soyqırımı cinayətlərinin şahidi olduğunu söyləyib.

Kitabın müəllifi Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın mərd oğullarının qəhrəmanlığı sayəsində 44 günlük Vətən müharibəsində qazanılan Zəfər nəticəsində şəhidlərimizin qanının yerdə qalmadığını vurğulayıb.

Tədbirdə Xalq yazıçısı Çingiz Abdullayev, Xocalı faciəsinin canlı şahidləri, hərbi ekspertlər də çıxış ediblər. Qeyd olunub ki, Xocalı faciəsinə siyasi-hüquqi qiymət ilk dəfə Ulu öndər Heydər Əliyev hakimiyyətə qayıtdıqdan sonra verilib. Ümummilli liderin təşəbbüsü ilə 1994-cü ildə Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən "Xocalı soyqırımı günü haqqında" qərar qəbul edilib, 26 fevral ölkəmizdə Xocalı Soyqırımı Günü elan olunub.

# Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin strukturuna daxil olan regional mədəniyyət idarələrinin yenidən təşkili və "Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin strukturunun təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 29 mart tarixli 1932 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq qərara alıram:

**1.** Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin strukturuna daxil olan regional mədəniyyət idarələri (Sumqayıt Regional Mədəniyyət İdarəsi, Xaçmaz Regional Mədəniyyət İdarəsi, İsmayıllı Regional Mədəniyyət İdarəsi, Şəki Regional Mədəniyyət İdarəsi, Kürdəmir Regional Mədəniyyət İdarəsi, Ağstafa Regional Mədəniyyət İdarəsi, Şəmkir Regional Mədəniyyət İdarəsi, Gəncə Regional Mədəniyyət İdarəsi, Bərdə Regional Mədəniyyət İdarəsi, Ağcabədi Regional Mədəniyyət İdarəsi, Ağdaş Regional Mədəniyyət İdarəsi, Sabirabad Regional Mədəniyyət İdarəsi, Biləsuvar Regional Mədəniyyət İdarəsi, Masallı Regional Mədəniyyət İdarəsi və Lənkəran Regional Mədəniyyət İdarəsi) əsasında, "Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü haqqında" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 7 iyul tarixli 1386 nömrəli Fərmanının 1.3–1.14-cü bəndləri ilə müəyyən edilmiş Azərbaycan Respublikasının iqtisadi rayonlarının bölgüsünə uyğun olaraq, aşağıdakı regional mədəniyyət idarələri yaradılsın:

**1.1.** Abşeron–Xızı Regional Mədəniyyət İdarəsi;

**1.2.** Dağlıq Şirvan Regional Mədəniyyət İdarəsi;

**1.3.** Gəncə–Daşkəsən Regional Mədəniyyət İdarəsi;

**1.4.** Qarabağ Regional Mədəniyyət İdarəsi;

**1.5.** Qazax–Tovuz Regional Mədəniyyət İdarəsi;

**1.6.** Quba–Xaçmaz Regional Mədəniyyət İdarəsi;

**1.7.** Lənkəran–Astara Regional Mədəniyyət İdarəsi;

**1.8.** Mərkəzi Aran Regional Mədəniyyət İdarəsi;

**1.9.** Mil–Muğan Regional Mədəniyyət İdarəsi;

**1.10.** Şəki–Zaqatala Regional Mədəniyyət İdarəsi;

**1.11.** Şərqi Zəngəzur Regional Mədəniyyət İdarəsi;

**1.12.** Şirvan–Salyan Regional Mədəniyyət İdarəsi.

**2.** "Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin strukturunun təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 29 mart tarixli 1932 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 3, maddə 572; 2021, № 1, maddə 79) 2-ci hissəsi ləğv edilsin.

**3.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri, 23 fevral 2023-cü il**

# İtaliya Senatında Xocalı soyqırımı qurbanlarının xatirəsi anılıb

## Salvatore Sallemi: "Belə cinayətlərin yenidən yaşanmaması üçün Xocalı faciəsinə hüquqi qiymət verilməlidir"

*əvvəli səh. 1-də*

Azərbaycanın İtaliyadakı səfiri Rəşad Aslanov tarix boyu Ermənistanın ölkəmizə qarşı ərazi iddialarının olduğunu bildirib, xalqımıza qarşı etnik təmizləmə siyasətinin həyata keçirildiyini vurğulayıb. Qeyd olunub ki, Ermənistan silahlı qüvvələri tərəfindən Xocalıda törədilmiş soyqırımı zamanı 613 nəfər, o cümlədən 63 uşaq, 106 qadın, 70 qoca vəhşicəsinə qətlə yetirilib, 8 ailə tamamilə məhv edilib, 25 uşaq hər iki valideynini, 130 uşaq valideynlərindən birini itirib, 76-sı uşaq olmaqla 487 nəfər yaralanıb, 1275 nəfər girov götürülüb və onlardan 150 nəfərin aqibəti indiyədək məlum deyil.

Səfir Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə həyata keçirilən "Xocalıya ədalət!" kampaniyasından, soyqırımı həqiqətlərinin yayılması istiqamətində atılan addımlardan bəhs edib.

İtaliya İnsan Hüquqları Federasiyası-İtaliya Helsinki Komitəsinin sədri professor Antonio Stanqo Xocalı hadisələrinin beynəlxalq hüquqa, o cümlədən "Soyqırımı cinayətinin qarşısının alınması və cəzalandırılması haqqında" Konvensiyaya uyğun olaraq soyqırımı cinayəti kimi tövsif edildiyini bildirib. O, 2020-ci ildə İtaliya Senatında başlanmış "Barışıq üçün etiraf et" təşəbbüsünün davam etdiyini, bu xüsusda insan hüquqları təşkilatlarının və parlamentarilərin üzvlüyünə açıq olduğunu bildirib.



Xocalı faciəsinin Ermənistanın Azərbaycan xalqına qarşı etnik təmizləmə siyasəti olduğunu qeyd edən senator Salvatore Sallemi dinc əhaliyə, o cümlədən körpə uşaqlara, qadınlara qarşı törədilən vəhşiliklərdən dəhşətə gəldiyini bildirib və bu cür cinayətlərin yenidən yaşanmaması üçün Xocalı faciəsinə hüquqi-siyasi qiymətin verilməsinin vacibliyini vurğulayıb.

İtaliyanın Xarici İşlər və Beynəlxalq Əməkdaşlıq Nazirliyinin nümayəndəsi Emanuel Farruccia isə Ermənistan-Azərbaycan münaqişəsi ilə bağlı ATƏT çərçivəsində sülh prosesi ilə bağlı öz təcrübəsindən bəhs edib, 30 ilə yaxın davam etmiş bu danışıqların bir nəticə vermədiyini diqqətə çatdırıb. O, Xocalı faciəsinin inkar edilməsinin qeyri-mümkün olduğunu vurğulayaraq Ermənistanın sabiq prezidenti Serj Sarkisyanın Xocalı faciəsində törətdikləri vəhşiliklərlə bağlı etiraflarının hələ də unudulmadığını bildirib. Diplomat Xocalı qətliamının Ermənistan tərəfindən Azərbaycan xalqına qarşı etnik təmizləmə siyasətinin bir hissəsi olduğunu söyləyərək daha sonra bu qətliamın işğal zaman Azərbaycanın digər yaşayış məntəqələrində də davam etdirildiyini diqqətə çatdırıb. O, cinayətkarların cəzalandırılması üçün beynəlxalq tribunalın yaradılması təcrübəsi olduğunu xatırladıb.

Xocalı soyqırımının acı nəticələri barədə ətraflı məlumat verilən konfrans İtaliya Senatının televiziyası və yutub kanalı vasitəsilə canlı yayımlanıb.

# Beynəlxalq Ədalət Məhkəməsi: Azərbaycan öhdəliyinə sadiqdir

## XİN: Azərbaycan Laçın yolunda humanitar məqsədlər üçün hərəkətə heç bir manea törətmir

*əvvəli səh. 1-də*

BMT-nin ali ədliyyə orqanı olan Beynəlxalq Ədalət Məhkəməsinin (İCJ) Azərbaycanın və Ermənistanın müvafiq müraciətləri ilə bağlı qərarı fevralın 22-də elan olunub.

"Qərarda qeyd olunub ki, üçtərəfli Bəyanata əsasən, Laçın yolunda nəzarət Rusiya sülhməramlılarına aiddir və Azərbaycanın öhdəliyi humanitar məqsədlə keçidlərin təhlükəsizliyinin təmin edilməsidir. Azərbaycanın bu günə qədər olduğu kimi, bundan sonra da öz öhdəliklərinə sadiq olduğu məhkəmə dinləmələrində səsləndirilib. Zəmanət verilib ki, məhz humanitar məqsədlər üçün hərəkətlərin təhlükəsizliyi təmin ediləcək. Məhkəmə qərarını açıqlayanda Azərbaycanın öhdəliyinə sadiq olduğunu vurğulayıb", – deyə nazir müavini diqqətə çatdırıb.

Elnur Məmmədov bildirib ki, Azərbaycan tərəfi yanvarın 30-da dinləmələr zamanı Laçın yolundakı etiraz aksiyalarının ekofəallar tərəfindən təşkil olunduğunu, həmin etirazlarda iştirak edən QHT-lərin siyahılarını, müvafiq ekofəalların adlarını, ümumilikdə etiraz aksiyalarının nə ilə bağlı həyata keçirildiyini, bununla əlaqədar təfsilatlı məlumatı məhkəməyə təqdim etmişdi. Həmin dinləmələr də açıq şəraitdə keçirilib, canlı yayımda göstərilib.

Qeyd edək ki, Azərbaycan tərəfinin Beynəlxalq Ədalət Məhkəməsinə müraciəti işğaldan azad edilmiş ərazilərdəki minalarla bağlı olub.

"Ermənistanda 2021-ci ildə istehsal edilmiş minaların işğaldan azad edilmiş ərazilərimizdə aşkarlanması haqqında bizim tərəfdən ortaya qoyulan faktların heç birini Ermənistan məhkəmə prosesi zamanı təkzib edə bilmədi", – deyə xarici işlər nazirinin müavini bildirib.

O qeyd edib ki, bu minalar ancaq Laçın yolu vasitəsilə gətirilə bilərdi. Bu da onu göstərdi ki, son iki ildə Ermənistan üçtərəfli Bəyanatdan irəli gələn öhdəliklərini pozub.

# Mayamidə "Xocalının Anım Günü"

ABŞ-nin Mayami-Deyd dairəsində 26 fevral 2023-cü il tarixi "Xocalının Anım Günü" kimi elan edilib.




Diasporla İş üzrə Dövlət Komitəsindən verilən xəbərə görə, bu barədə Mayami-Deyd dairəsinin meri Daniella Levin Kava və Mayami-Deyd dairəsinin Komissarları Şurasının sədri III Oliver G.Gilbert bəyannamə imzalayıb.

ABŞ-nin keçmiş baş prokuroru Robert Frensis Kennedinin "Bəşəriyyətin tarixi saysız-hesabsız müxtəlif cəsarət və iman əməllərindən formalaşır. İnsan hər dəfə bir idealı müdafiə edəndə, başqalarının vəziyyətini yaxşılaşdırmaq üçün hərəkət edəndə və ya ədalətsizliyə qarşı mübarizə apardıqda incə bir ümid dalğası göndərir" fikri ilə başlayan bəyannamədə bildirilib ki, 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Azərbaycanın Xocalı şəhər əhalisinin qətliama məruz qalması nəticəsində aralarında çoxlu uşağın, qadının və ahılın olduğu 600-dən çox dinc və günahsız mülki şəxs qətlə yetirilib. Diqqətə çatdırılıb ki, insan haqları üzrə məşhur beynəlxalq təşkilatlar, o cümlədən "Human Rights Watch" bu faciəni bölgənin ən böyük qırğını adlandırıb.

Xocalı faciəsini "müharibə dövründə törədilən dəhşətli dağıntıların və bütün dünyada insanlar arasında daha çox anlaşma, ünsiyyət və tolerantlığa olan davamlı ehtiyacının ayıq bir xatırlatması" kimi səciyyələndirən bəyannamə müəllifləri Mayami-Deyd dairəsində, Florida ştatında və bütün dünyada yaşayan azərbaycanlıların hər il Xocalı qurbanlarının xatirəsini ehtiramla yad etdiklərini vurğulayıblar.

Bəyannamə Florida ştatında fəaliyyət göstərən Azərbaycan-Amerika Gənclər Assosiasiyasının rəhbəri Nabat Eminovaya təqdim edilib.

# Əməkdar rəssam Ağasaleh Nuriyev vəfat edib

Azərbaycan mədəniyyətinə itki üz verib. Əməkdar rəssam, tanınmış dekorativ-tətbiqi sənət ustası Ağasaleh Nuriyev fevralın 23-də, 83 yaşında vəfat edib.



Ağasaleh Məmmədhüseyn oğlu Nuriyev 28 mart 1940-cı ildə Bakıda anadan olub. 1962-ci ildə Əzim Əzimzadə adına Dövlət Rəssamlıq Məktəbini, 1973-cü ildə Kiyev Dövlət Rəssamlıq İnstitutunu rəssam-monumentalçı ixtisası üzrə bitirib. 1976-cı ildə SSRİ Rəssamlar İttifaqına üzv seçilib. Əsərləri respublikamızla yanaşı Rusiya, Almaniya və Türkiyədə sərgilərdə nümayiş olunub.

Rəssamın yaradıcılığında vitrajlar xüsusi yer tutur. O, Azərbaycan Rəssamlar İttifaqında ("Flora və fauna", 1973), Səməd Vurğunun Ev-Muzeyində (1975) vitraj kompozisiyaların, AMEA Əlyazmalar İnstitutunda M.Füzuli və M.Ş.Vazehin vitraj portretlərinin, Bibiheybət məscidində vitrajların müəllifidir. Rəssam "Musiqiçilər" kompozisiyasına ("İnşaatçılar" metro stansiyasının bədii tərtibatı) görə Moskvada Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisində (1976) medalla təltif olunub.

Ağasaleh Nuriyev 2006-cı ildə "Əməkdar rəssam" fəxri adına layiq görülüb. Rəssamın "Nurlu sənət dünyası" adlı sonuncu fərdi sərgisi 2022-ci ildə Heydər Əliyev Mərkəzində keçirilib.

Allah rəhmət eləsin.

# Milli Kitabxanada Əhməd Cavadla bağlı nəşrlərin təqdimatı

## Biblioqrafiya və seçmə şeirlər



əvvəli səh. 1-də

Mədəniyyət Nazirliyinin Kitab sənayesi şöbəsinin müdiri Akif Marifli bildirib ki, nazirlik TÜRKSOY-la birlikdə bir çox layihələr həyata keçirib. Bu layihələr Türk dünyasının gücünün, zəngin mədəni irsinin göstəricisidir. Əhməd Cavadın Ankarada heykəlinin qoyulması, eləcə də silsilə tədbirlərin təşkili TÜRKSOY-un ona verdiyi dəyərin nümunəsidir. Əhməd Cavad 45 illik ömrü çərçivəsində böyük Turan elini özünə sığdıran bir edibdir.

Azərbaycan Yazıçılar Birliyinin sədri, Xalq yazıçısı Anar deyib ki, Əhməd Cavad daima türk xalqlarının birliyi üçün çalışıb. Bu baxımdan "Çırpınırdın, Qara dəniz" şeiri çox böyük əhəmiyyətə malikdir. O, Türkiyədə Əhməd Cavadın kitabının nəşr olunmasına çox şad olduğunu bildirib.



TÜRKSOY-u Türk dünyasının UNESCO-su adlandıran AMEA-nın prezidenti, N.Gəncəvi adına Ədəbiyyat İnstitutunun direktoru, akademik İsa Həbibbəyli qeyd edib ki, himn yazmaq böyük bir tarixdir. Himnimizin sözlərinin müəllifi olan Ə.Cavad bununla öz adını Azərbaycan tarixinə qızıl hərflərdə həkk edib. Akademik Milli Kitabxananın hazırladığı biblioqrafiyadan bəhs edərək deyib ki, bu nəşr dahi ədəbin əsərlərinin tədqiq olunmasında çox böyük əhəmiyyətə malikdir və yeni tədqiqatların başlanğıcı olacaq.

Tədbirdə Əməkdar elm xadimi Qəzənfər Paşayev, Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun layihə rəhbəri Nuri Aksu, Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun şöbə müdiri professor Asif Rüstəmli, Mədəniyyət Nazirliyinin TÜRKSOY-da daimi nümayəndəsi Elçin Qafarlı, ADPU-nun Türk araşdırmaları bölməsinin müdiri professor Elman Quliyev Əhməd Cavadın yaradıcılığından söz açıb, onun adının Azərbaycan və ümumtürk ədəbi irsində daima yaşayacağını qeyd ediblər. Vurğulanıb ki, maarifçi və ictimai xadim Əhməd Cavad bizim ədəbiyyatımızın, mədəniyyətimizin, istiqlal tariximizin böyük şəxsiyyətidir.

Əhməd Cavadın nəticəsi Cavad Axundzadə ailəsinin adından çıxış edərək tədbirin təşkilinə görə Mədəniyyət Nazirliyinə, Milli Kitabxanaya və TÜRKSOY-a təşəkkürünü bildirib.

Sonda professor Sultan Raev son illər ərzində TÜRKSOY-la sıx əməkdaşlığa görə Azərbaycan Milli Kitabxanasına təşkilatın xatirə hədiyyəsini təqdim edib.

Qonaqlar "Milli istiqlal şairi Əhməd Cavad" adlı geniş kitab sərgisi və Milli Kitabxananın əməkdaşları tərəfindən hazırlanan "İstiqlal şairi – Əhməd Cavad" adlı elektron məlumat bazası ilə tanış olublar. Məlumat bazası üç dildə (Azərbaycan, rus, ingilis) istifadəçilərə təqdim olunur.

# "Bizim böyük müəllimimiz"

## Xalq artisti Kövkəb Səfərəliyeva haqqında kitab təqdim edilib

Azərbaycanın ilk qadın pianoçu-pedaqoqu, maarifçi, professor, Xalq artisti Kövkəb Səfərəliyevaya (1907-1985) həsr olunmuş "Bizim böyük müəllimimiz" kitabı işıq üzü görüb.

Fevralın 22-də Azərbaycan Musiqi Mədəniyyəti Dövlət Muzeyində kitabın təqdimatı keçirildi. Təqdimat "İrsimizin Tədqiqi və Təbliği" İctimai Birliyinin və muzeyin təşkilatçılığı ilə gerçəkləşdi. Kitabın müəllifi K.Səfərəliyevanın yetirməsi, musiqiçi-pedaqoq Şərafət Əliyeva-Əzizovadır.

Muzeyin şöbə müdiri Xanım Abdinova çıxış edərək tədbirin əhəmiyyətindən söz açdı. Aparıcı sənətşünaslıq üzrə fəlsəfə doktoru, Əməkdar mədəniyyət işçisi Səadət Təhmirazqızı K.Səfərəliyevanın musiqi mədəniyyətimizin inkişafındakı xidmətlərindən danışdı. O, yeni kitabın musiqi ictimaiyyətinə töhfə olduğunu diqqətə çatdırdı.

Azərbaycan Bəstəkarlar İttifaqının katibi Əməkdar incəsənət xadimi, professor Zemfira Qafarova, Əməkdar incəsənət xadimi, professor Gülnaz Abdullazadə, K.Səfərəliyeva adına 16 nömrəli Musiqi məktəbinin direktoru Fikrət Budaqov da kitabın əhəmiyyətini vurğuladılar. Bildirildi ki, bundan əvvəl Adilə Mailova rus dilində yazdığı kitabda K.Səfərəliyevanın həyat və fəaliyyətini geniş təhlil etmişdi.



Azərbaycan dilində hazırlanan yeni nəşr isə əlavə materiallarla zənginləşdirilib və görkəmli musiqi xadiminin zəngin irsinin dolğun çatdırılmasına xidmət edir. Kitabda həmçinin Azərbaycan musiqiçilərinin böyük bir nəslinin həyat və fəaliyyətinə də işıq salınıb.

Tədbirin bədii hissəsində Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının professoru, Xalq artisti, pianoçu Ülviyyə Hacıbəyova, Azərbaycan Milli Konservatoriyasının dosenti, sənətşünaslıq üzrə fəlsəfə doktoru Naibə Şahməmmədova, gənc pianoçular, beynəlxalq müsabiqələr laureatları Jalə İslamova, Cəmil Sədizadə və 16 nömrəli Musiqi məktəbinin şagirdləri K.Səfərəliyevaya ithaf olunan konsert proqramı ilə çıxış etdilər. Tədbir boyu muzeyin kolleksiyalarından görkəmli musiqi xadiminin həyat və yaradıcılıq yolunu əks etdirən slayd-şou nümayiş olunurdu.

**L.Azəri**



Fevralın 21-də Beynəlxalq Muğam Mərkəzində (BMM) "Cadenza" orkestrinin "Yaddaş#2" adlı konserti keçirildi.

# Xocalı soyqırımına həsr olunan "Yaddaş"

## "Cadenza" orkestrinin konserti

Xocalı faciəsinin 31-ci ildönümünə həsr olunan konsertdə musiqişünas Səfaqət Məmmədova proqramda səslənəcək əsərlər və onların müəllifləri haqqında məlumat verdi.

Daha sonra orkestr Orxan Həşimovun "Piano və solo üçün violin", Fərhəng Hüseynovun "Stabat Mater", Qalib Məmmədovun "Simli kvartet", Ayaz Qəmbərlinin "Miniatür", Tahir İbişovun "Epitafiya" və Azər Hacıəsgərlinin "613.1992" əsərlərini təqdim etdi.

Proqram üçün seçilmiş əsərlər dinləyicini kədərin və dəhşətin dərin qatlarına apararaq sanki yalnız buraxırdı. İfaçıların təqdimatı da peşəkarlıq baxımdan təsirli idi. Solistlər – Əməkdar artist Fəridə Məmmədova (soprano), Ümid Mustafazadə (violin), Samir Əsədov (violin), Anar Məmmədov (bas-klarnet), Afaq Qarayeva, Rəna Fərhadova (hər ikisi piano) əsərləri lirik və kədər notlarında böyük ustalıqla nümayiş etdirə bildilər. Musiqi əsərlərində qəm-qüssə intonasiyaları ilə yanaşı, mübarizə ruhu və qalib ruh da hakim idi.

Qeyd edək ki, "Cadenza"nın "Yaddaş" silsiləsindən ilk konserti də ötən ilin may ayında BMM-də keçirilmişdi.

**Lalə**

# "Xocalıda ruhum qalıb"



Xocalı soyqırımının 31-ci ildönümü ilə əlaqədar fevralın 23-də Azərbaycan İstiqlal Muzeyində "Xocalıda ruhum qalıb" adlı tədbir-sərgi keçirilib.

Sərgidə tanınmış rəssam və heykəltəraşlar Xanlar Əhmədov, Əşrəf Heybətov, Zakir Əhmədov, Cəlil Qaryağdı, Nəriman Tağıyev, Yusif Mirzə, Elnarə Xanlarova, İslam Abdullayevin şəxsi kolleksiyalarda, Rahib Qarayev, Cavid Bayramlı və Nazim Məmmədovun isə muzeyin fondlarında qorunub saxlanılan müxtəlif təsviri və tətbiqi sənət nümunələri nümayiş olunub.

Qeyd edək ki, tədbir zamanı rəssam Yusif Mirzənin muzeyə hədiyyə etdiyi "Xocalı ruhları" və "Müharibə siluetləri silsiləsindən" adlı rəsm əsərlərinin təqdimatı keçirilib.

Tədbirdə rəssamlar, Dövlət Miqrasiya Xidmətinin əməkdaşları, DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzinin könüllüləri və digər qonaqlar iştirak ediblər.

# "Köksü dağlı Xocalı"



Fevralın 23-də Cəfər Cabbarlı adına Azərbaycan Dövlət Teatr Muzeyində yaxın keçmişimizin ən dəhşətli faciələrindən olan Xocalı soyqırımının 31 illiyinə həsr olunmuş "Köksü dağlı Xocalı" adlı anım günü keçirilib.

Tədbirdə əvvəlcə Dövlət Himni səslənib, şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Muzeyin əməkdaşı XX əsrdə bəşər tarixinə ən faciəli səhifələrdən biri kimi yazılmış 1992-ci ilin Xocalı soyqırımı haqqında danışıb.

Faciənin şahidləri yaddaşlarında həkk olunmuş dəhşətli anlardan bəhs edərək acı xatirələrini bölüşüblər.

Muzey əməkdaşları tərəfindən Xocalı hadisələri ilə bağlı hazırlanmış videoçarx nümayiş olunub.

Anım tədbirinin bədii hissəsi Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyası tələbələrinin ifasında şəhidlərin xatirəsinə ithaf olunmuş kompozisiya ilə davam edib.

# "Türk dünyasının qızıl körpüsü – TÜRKSOY"

## Təşkilatın 30 illiyi münasibətilə inşa müsabiqəsi elan olunub

Bu il Türk dünyasının mədəniyyət diplomatiyası sahəsində fəaliyyət göstərən ilk qurumu olan Beynəlxalq Türk Mədəniyyəti Təşkilatı – TÜRKSOY-un yaranmasının 30 illik yubileyidir. Bu münasibətlə il ərzində həm qərargahı Ankarada yerləşən təşkilatda, həm də üzv ölkələrdə müxtəlif tədbirlər keçiriləcək.




Əlamətdar yubileylə bağlı TÜRKSOY-un təşkilatçılığı ilə qurucu ölkələri (Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Özbəkistan, Türkiyə və Türkmənistan) əhatə edən "Türk dünyasının qızıl körpüsü – TÜRKSOY" mövzusunda inşa müsabiqəsi elan olunub.

Müsabiqənin məqsədi təşkilata üzv ölkələrdə məktəblilər arasında Türk dünyasının tarix və mədəniyyətinin, xalqlarımızın ortaq dəyərlərinin, adət-ənənələrinin öyrənilməsi və təbliğinə, bununla uşaqların özlərini – milli kimliklərini dərk etmələrinə vəsilə olmaqdır.

Müsabiqəyə adıçəkilən 6 ölkənin ümumtəhsil məktəblərində oxuyan 13-15 yaş arası şagirdləri qatıla bilərlər. Hər şagird yarışmaya öz ana dilində yazdığı bir inşa mətni təqdim etməlidir. İnşanın mətni "Calibri" şrifti ilə 11 ölçüdə, 1,5 intervalda yığılmaqla 3 A4 vərəqindən çox olmamalıdır. İnşada imza və başlıq qoyulmamalıdır. Material hər şagirdin şəxsiyyət vəsiqəsinin bilgiləri əsasında şifrə ilə veriləcək. Hər iştirakçı özünün müəyyən etdiyi təxəllüs və parolu mətnin sağ küncündə yazmalıdır.

Hər üzv ölkədən seçilmiş 10 nümunə TÜRKSOY-a (turksoy@turksoy.org) təqdim olunacaq. Təşkilatda bu mətnlərin arasından 3 ən yaxşı nümunə qalib elan ediləcək.

Müsabiqəyə inşalar 2023-cü il 20 mart tarixinədək qəbul olunur. Qaliblər aprelin 1-də elan ediləcək.

Birinci yeri tutanlara notbuk, II və III yerin sahiblərinə isə planşet hədiyyə olunacaq. Qaliblər eyni zamanda Türkiyənin milli günü – Milli Suverenlik və Uşaq Bayramı (23 aprel) ilə bağlı tədbirlərə qatılacaq, Ankara və İstanbulun tarixi-mədəni məkanlarını ziyarət edəcəklər.

# ICESCO-nun rəhbəri təhsildə sosial ədalətə çağırır

## Buna İslam sivilizasiyasının ən parlaq dövrünə xas tolerantlıqla nail olmaq olar

İslam Dünyası Təhsil, Elm və Mədəniyyət Təşkilatının (ICESCO) baş direktoru Salim əl-Malik bəyan edib ki, ədalət prinsipi sabitliyin və bütün sosial uğurların əsası, inkişafın sirri və bəşəriyyətin tərəqqi vasitəsidir. Bu faktor, həmçinin təhsilin keyfiyyətinin yüksəldilməsi, rəqəmsal ədalətə nail olunması, elmi nailiyyətlərin qazanılması, sağlam cəmiyyətlər və bəşəriyyət üçün daha parlaq gələcək qurulmasının zəruri şərtidir.

Salim əl-Malik Sosial Ədalət üzrə 7-ci Beynəlxalq Parlament Forumunun açılış mərasimində çıxışında inklüziv təhsilin və insan kapitalının sosial ədalət prinsipi ilə üzvi şəkildə bağlı olduğunu deyib. Bildirib ki, bu prinsipə əməl olunması cəmiyyəti bəşəriyyətin əziyyət çəkdiyi sosial ədalətsizlikdən, o cümlədən təcrid, məhrumiyyət və marginallaşmadan xilas etməlidir. Sosial ədalətsizlik qloballaşma, texnologiya və dünya üzrə demoqrafik transformasiyaların səbəb olduğu iqtisadi bərabərsizlikdən irəli gəlir.

Baş direktorun sözlərinə görə, təhsilin ictimai tərbiyənin beşiyi olduğunu nəzərə alsaq, təhsil müəssisələri səviyyəsində ədalətin bərqərar olunmasında əldə olunan uğurlar digər sahələrdə ədalətin bərpasını təmin edəcək. O, təhsildə sosial fərqlərin aradan qaldırılması üçün daha çox səy göstərməyə, qızların təhsilinə maksimum dərəcədə diqqət yetirməyə çağırıb.

ICESCO-nun rəhbəri vurğulayıb ki, süni intellekt tətbiqləri və əməliyyatların rəqəmsallaşdırılması həyat üçün zəruridir və bunları nəzərə alaraq rəqəmsal ədalətə nail olmaq da təhsilin keyfiyyətini artırmağa kömək edəcək. "ICESCO özünün yeni baxışı və strateji istiqamətləri çərçivəsində təhsil sahəsində sosial ədalət dəyərlərini "Bizim istədiyimiz icmalar" təşəbbüsü çərçivəsində müdafiə edir. İslam sivilizasiyasının ən parlaq dövründə səciyyəvi olan tolerantlıq cəmiyyətini xilas etmək məqsədilə sosial ədalətsizliyin toxumlarını daşıyan fərqlərdən qurtulmaq bizim əsas məqsədimizdir", – deyə o bildirib.

# BMA-da soyqırımı qurbanlarının xatirəsinə ithaf



Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasında (BMA) Kamera ansamblı kafedrası tələbələrinin Xocalı soyqırımının 31-ci il dönümünə həsr olunmuş konserti olub.

Akademiyadan bildirilib ki, konsertdə professorlar Kəmalə Neymanova, Töfhə Babayeva, Fəridə Əhmədbəyova, Xanım Abdullayevanın tələbələri – Rəşad Abdullayev, Məryəm Məmmədova, Lamiyə Sərxanova, İlahə Məmmədova, Lalə Gözəlova, Renata Abubəkirova, Əzizə Abdullayeva, Əli Günəşov, Əhməd Əhmədov, Rəşad Ağayev, Jalə İslamova, Zərrin Əliyeva, Orxan Cumayev, Nərminə İsmayılova, Osman Mustafazadə çıxış ediblər.

Konsertdə L.Bethoven, F.Şubert, K.Debüssi, D.Şostakoviç, M.Qlinka və F.Sayın əsərləri səsləndirilib.

№15 (1984)
24 fevral 2023
www.medeniyyet.az

# Vətənin qəhrəmanları unudulmur

Qubadlı Rayon Tarix-Diyarşünaslıq Muzeyinin əməkdaşları Vətən müharibəsi şəhidi Ülvü Məhərrəmovun ailəsini ziyarət ediblər.

***

Gəncə şəhər Mərkəzi Kitabxanasının əməkdaşları Vətən müharibəsinin şəhid giziri Müşfiq Xosizadənin ailəsi ilə görüş keçirib. Görüşdə şəhidin həyatı, döyüş yolu və şücaətindən bəhs edən videoçarx nümayiş olunub.

***



Bərdə rayon Mədəniyyət Mərkəzi və Fərahim Quliyev adına şəhər 2 nömrəli Uşaq musiqi məktəbinin birgə təşkilatçılığı ilə Vətən müharibəsi şəhidi Şövqi İsmayılzadənin doğum günü ilə əlaqədar "Yarım qalmış ömrün xatirələri" adlı ədəbi-bədii gecə təşkil edilib. Tədbirdə şəhidin təhsil aldığı musiqi məktəbinin kollektivi tərəfindən vətənpərvərlik mövzusunda mahnılar oxunub, şeirlər səsləndirilib. Bərdə rayon Mədəniyyət Mərkəzinin nəzdində fəaliyyət göstərən Xalq teatrının təqdimatında "Yarım qalmış ömrün xatirələri" adlı tamaşa nümayiş etdirilib.

***

Salyan rayon Mədəniyyət Mərkəzinin Dayıkənd kənd Mədəniyyət evində şəhid Arif Nağıyevin anım günü qeyd edilib. Mədəniyyət işçiləri tərəfindən şəhidlərə, Vətənə həsr olunan kompozisiya təqdim olunub.

# Ağsu rayonundakı mədəniyyət müəssisələrinə baxış keçirilib

## Musiqi məktəbinin binası qəzalı olduğu üçün tədris başqa binada davam etdiriləcək



Regionlarda fəaliyyət göstərən mədəniyyət müəssisələrinin iş şəraiti və maddi-texniki bazasının mövcud vəziyyətinin yerində öyrənilməsi məqsədilə mədəniyyət nazirinin birinci müavini Adil Kərimli nazirliyin məsul şəxsləri ilə birlikdə Ağsu rayonundakı Heydər Əliyev Mərkəzi, Ağsu rayon Mədəniyyət Mərkəzi, şəhər Mədəniyyət evi, rayon MKS-nin Mərkəzi Kitabxanası, şəhər Uşaq musiqi məktəbi və Ağsu Tarix-Diyarşünaslıq Muzeyinə baxış keçirib.

Müəssisələrin fəaliyyəti ilə tanışlıq zamanı əməkdaşların iş şəraitinin yaxşılaşdırılması, yaradıcı insanlara, o cümlədən istedadlı gənclərə dəstək göstərilməsi, onların yerli və ölkə əhəmiyyətli müsabiqələrdə təmsil olunmasına şərait yaradılması, tədris şəraitinin yaxşılaşdırılması ilə bağlı müvafiq tapşırıqlar verilib.

84 nəfər müəllim və texniki işçi heyətinin çalışdığı, 271 şagirdin təhsil aldığı Ağsu şəhər Uşaq musiqi məktəbinə baxış zamanı binanın qəzalı vəziyyətdə olduğu və belə şəraitdə tədrisin davam etdirilməsinin mümkünsüzlüyü müəyyən edilib. Rayon üzrə Fövqəladə Hallar Komissiyasının müvafiq aktı da öyrənildikdən sonra məktəbin müəllim və şagird heyətinin müvəqqəti olaraq binadan çıxarılması, tədrisin bu müddətdə başqa binada keçirilməsinə qərar verilib.

# Mirzə Cəlilin doğum günü qeyd olunub

Fevralın 22-də böyük yazıçı-dramaturq, publisist Cəlil Məmmədquluzadənin (1869-1932) anadan olmasının 154-cü ildönümü oldu. Bu münasibətlə ədibin Naxçıvan şəhərindəki ev-muzeyində tədbir keçirilib.



Tədbirdə Naxçıvan Muxtar Respublikası mədəniyyət nazirinin müavini Həsən Kərimov böyük ədibin xatirəsinin əbədiləşdirilməsi barədə danışıb. Qeyd olunub ki, Ulu öndər Heydər Əliyevin göstərişi ilə 1974-cü ildə Naxçıvan şəhərində yazıçının heykəli ucaldılıb, Cəlil Məmmədquluzadənin dərs dediyi Nehrəm qəsəbəsində, Şərur rayonunun Cəlilkənd kəndində xatirə muzeyləri, 1994-cü ildə Bakıda, 1999-cu ildə Naxçıvanda ev-muzeyləri yaradılıb.

AMEA Naxçıvan Bölməsi, İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun şöbə müdiri filologiya üzrə fəlsəfə doktoru Ramiz Qasımov, institutun böyük elmi işçisi Aygün Orucova ədibin yaradıcılığından söz açıblar.

***

C.Məmmədquluzadə adına Naxçıvan Muxtar Respublika Ədəbiyyat Muzeyində də görkəmli ədibin doğum günü qeyd olunub.

Muzeyin direktoru Aləmzər İbrahimova, Muxtar respublika Yazıçılar Birliyinin sədri Asim Əliyev, pedaqogika elmləri doktoru Kamal Camalov Mirzə Cəlilin yaradıcılığından, pedaqoji görüşlərindən danışıblar. Vurğulanıb ki, "Molla Nəsrəddin" jurnalının elə bir nömrəsini tapmaq olmaz ki, orada məktəb, maarif, təlim-tərbiyə məsələlərinə toxunulmamış olsun. Muzeydə ədibə həsr olunmuş guşəyə baxış keçirilib.

# Naxçıvan Dövlət Kukla Teatrı repertuarını zənginləşdirir

Naxçıvan Dövlət Kukla Teatrı xalq nağılları, yerli və xarici dramaturqların əsərləri əsasında repertuarını daim zənginləşdirir. Teatrda Bayram İsgəndərlinin "Yalanlara inanmayın" pyesi üzərində yaradıcılıq işinə başlanılıb.

Tamaşanın quruluşçu rejissoru Xalq artisti Şirzad Abutalıbov, quruluşçu rəssamı Ədalət Quliyev, bəstəkarı teatrın musiqi hissəsinin müdiri Əli Məmmədov, kuklaların müəllifi Naxçıvan Muxtar Respublikasının əməkdar rəssamı Sabir Məmmədovdur. Əsərin ideyası yalanın, məkrin, fitnə-fəsadın ifşası, düzlüyün müdafiəsidir.

Yaradıcı heyət balacaları qarşıdan gələn Novruz bayramı günlərində də sevindirməyə hazırlaşır. Vüqar Haqverdiyevin "Saçları səməni oğlan" tamaşası bayram tətilində hər gün nümayiş olunacaq.

# Yerlərdə "Heydər Əliyev İli" tədbirləri

Saatlı Tarix-Diyarşünaslıq Muzeyi və rayon Gənclər evinin birgə təşkilatçılığı ilə "Heydər Əliyev və Saatlının tarixi" adlı intellektual bilik yarışması keçirilib. Rayonun məktəbliləri, rayon Gənclər evinin könüllüləri və digər gənclərin iştirak etdiyi yarışda qalib gələnlər fəxri fərman və hədiyyələrlə təltif olunublar.





***

Neftçala rayon Heydər Əliyev Mərkəzində "Heydər Əliyev irsi: milli dövlətçilik və müasirlik" adlı elmi-praktik konfrans keçirilib. Çıxış edənlər Ümummilli lider Heydər Əliyevin ideyalarından, təməlini qoyduğu siyasi kursun bu gün də uğurla davam etdirilməsindən söz açıblar. Tədbirdə həmçinin "Heydər Əliyev və Azərbaycan tarixinin aktual problemləri", "Heydər Əliyev və azərbaycançılıq məfkurəsi", "Heydər Əliyev və milli-mənəvi dəyərlərimiz", "Heydər Əliyev və Azərbaycan diplomatiyası" və digər mövzularda məruzələr dinlənilib.



***

Gəncə şəhər Heydər Əliyev Mərkəzi "Ulu öndər Heydər Əliyevin Azərbaycan tarixində rolu" mövzusunda tədbir keçirib. Çıxışlarda qeyd olunub ki, Ulu öndərin xalqımız və dövlətimiz qarşısındakı misilsiz xidmətləri Azərbaycan tarixinin şanlı səhifələrini təşkil edir.



***

Qəbələ rayon Heydər Əliyev Mərkəzində "Xalqın xilaskarı" adlı tədbir keçirilib. Ümummilli liderin ölkəmizin incəsənət xadimləri ilə görüşlərini əks etdirən videoçarx nümayiş olunub.

***

Kürdəmir Dövlət Rəsm Qalereyası və Kürdəmir Regional "ASAN Xidmət" mərkəzinin birgə təşkilatçılığı ilə Ulu öndərin 100 illik yubileyinə həsr olunmuş bilik yarışı keçirilib. Yarışda rayonun müxtəlif idarə və təşkilatlarını təmsil edən gənclərin iştirak etdiyi 8 komanda öz biliyini nümayiş etdirib. Sonda I, II, III yerləri tutan komandalar mükafatlandırılıb.

***

Qazax rayon Heydər Əliyev Mərkəzi və "Avey" Dövlət Tarix-Mədəniyyət Qoruğunun birgə təşkilatçılığı, rayon İcra Hakimiyyətinin dəstəyi ilə "Azərbaycan mədəniyyətinin inkişafında Heydər Əliyevin rolu" adlı tədbir keçirilib. Tədbir çərçivəsində "100 ağac əkək!" adlı aksiya da təşkil edilib.

# Şuşada türkdilli ölkələrin uşaq rəqs qruplarının festivalı

İyunun 1-də Şuşada "Heydər Əliyev – Türk dünyası birliyinin böyük carçısı" adlı beynəlxalq uşaq rəqs festivalının keçirilməsi nəzərdə tutulur.

Türkdilli dövlətlərin uşaq rəqs qrupları arasında festival Elm və Təhsil Nazirliyi tərəfindən təşkil olunacaq.

Layihə çərçivəsində festival iştirakçıları 28 may – 3 iyun tarixlərində Bakı və Şuşa şəhərlərində təşkil edilən ekskursiyalarda iştirak edəcək, ölkəmizin zəngin təbiəti, tarixi-memarlıq abidələri, quruculuq işləri ilə yaxından tanış olacaqlar.

# Ana dilimiz mənəvi sərvətimizdir

Fevralın 21-i dünyada Beynəlxalq Ana Dili Günü kimi qeyd olunur. Əlamətdar gün münasibətilə bölgələrdəki mədəniyyət müəssisələrində bir sıra tədbirlər keçirilib.

Sabirabad rayon Heydər Əliyev Mərkəzində keçirilən tədbirdə çıxış edənlər Azərbaycan dilinin saflığı və onun qorunmasından söz açıblar. Şagirdlərin ifasında ana dilimizə həsr olunan şeirlər səsləndirilib.

***



Sabit Rəhmanın Şəkidəki ev-muzeyində "Heydər Əliyev və ana dili" mövzusunda tədbir keçirilib. Tədbirdə mövzu ilə bağlı mühazirə dinlənilib. Şagirdlər Ümummilli liderin ana dilimizlə bağlı kəlamlarını səsləndiriblər.

Oğuz rayon Heydər Əliyev Mərkəzində keçirilən tədbirdə H.Babayev adına rayon 1 nömrəli tam orta məktəbin şagirdləri tərəfindən "Dilimiz, mənəvi sərvətimizdir" adlı ədəbi-bədii kompozisiya təqdim edilib.

***

Samux rayon Mədəniyyət Mərkəzində "Ana dilimizi qoruyaq" adlı tədbir təşkil olunub. Qeyd edilib ki, dil hər bir millətin maddi və mənəvi irsini qoruyan və inkişaf etdirən ən mühüm və ən güclü vasitədir. Hər hansı bir xalqın varlığının təzahürü, onun milli sərvəti olan dil cəmiyyətin təşəkkülü və inkişafı ilə birgə yaranır, tərəqqi edir.

***



Ağstafa rayon Mərkəzi Kitabxanasının əməkdaşları şəhər 1 saylı tam orta məktəbin şagirdləri üçün "Əsrlərin yadigarı – ana dilim" mövzusunda mühazirə təqdim ediblər. Beynəlxalq Ana Dili Gününün tarixindən və əhəmiyyətindən danışılıb, dilimizin keçdiyi inkişaf mərhələlərinə nəzər salınıb.

M.P.Vaqif və M.V.Vidadinin Xatirə Muzeyində isə "Dilimiz dəyərimizdir" adlı tədbir keçirilib.

***

Masallı rayon Heydər Əliyev Mərkəzində "Ana dilimizin inkişafında Heydər Əliyevin rolu" mövzusunda tədbir keçirilib. Çıxış edənlər Azərbaycan dilinin dövlət dili səviyyəsinə yüksəlməsində Ümummilli lider Heydər Əliyevin tarixi xidmətlərini qeyd edib.

***

Quba rayon MKS-nin Mərkəzi Kitabxanası Uşaq şöbəsinin təşkilatçılığı ilə "Ana dilimizi sevək və qoruyaq" adlı tədbir keçirilib. Kitabxananın fəal oxucuları ana dilimizə həsr olunmuş şeirlər söyləyiblər. İştirakçılar "Ana dili milli sərvətimizdir" adlı sərgiyə baxıblar.

***



Şamaxı rayon Mərkəzi Kitabxanası Uşaq şöbəsinin təşəbbüsü ilə "Mənim ana dilim" başlıqlı tədbir keçirilib. Çıxış edənlər Azərbaycan dilinin keçdiyi inkişaf yolu, zənginliyi, Ümummilli lider Heydər Əliyevin dilimizə qayğısı haqqında məlumat veriblər. Sonda əlamətdar günə həsr edilmiş sərgiyə baxış olub.

**Hazırladı: N.Məmmədli**

# Qan yaddaşımız



Goranboy rayon Mərkəzi Kitabxanası Xocalı soyqırımının 31-ci ildönümü ilə əlaqədar kitab sərgisi təşkil edib. Sərgidə tarix boyu bədnam qonşularımız tərəfindən xalqımızın başına gətirilən müsibətlərdən bəhs edən kitablar nümayiş olunub.

Goranboy rayon Mədəniyyət Mərkəzinin Nadirkənd kənd klubunda "Xocalı qan yaddaşımızdır" adlı anım tədbiri keçirilib. Ermənilərin Xocalıda dinc insanlara qarşı törətdiyi soyqırımının ağır nəticələrindən bəhs edilib.

***



Masallı Dövlət Rəsm Qalereyasında "Salam, Xocalı dərdim!" başlığı altında sərgi təşkil edilib. Fevralın 28-dək davam edəcək sərgidə məktəblilərin və qalereyanın dərnək üzvlərinin rəsmləri nümayiş olunur.

Yardımlı rayon Heydər Əliyev Mərkəzində faciənin 31-ci ildönümü ilə bağlı "İnsanlığa qarşı ən böyük cinayət" mövzusunda tədbir keçirilib.

***

Sabirabad rayon Mədəniyyət Mərkəzinin təşkilatçılığı ilə N.Gəncəvi adına 5 saylı şəhər tam orta məktəbində Xocalı faciəsinin 31-ci ildönümünə həsr olunmuş rəsm sərgisi təşkil olunub.

# Mədəni müxtəliflikdə birlik: Azərbaycan nümunəsində

Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin (BBMM) ənənəvi "Beynəlxalq Multikulturalizm Qış Məktəbi" layihəsi bu il "Mədəni müxtəliflikdə birlik: Azərbaycan nümunəsində" mövzusu da keçirilir.



Xaçmazda işini davam etdirən qış məktəbinin iştirakçıları fevralın 23-də "Azərbaycanda dil siyasəti və çoxdillilik" mövzusunda mühazirə dinləyiblər.

Mühazirəni Azərbaycan Dillər Universitetinin beynəlxalq əlaqələr üzrə prorektoru professor Jalə Qəribova təqdim edib. Bildirilib ki, Azərbaycanda milli və dini azlıqlarla bağlı aparılan dövlət siyasəti hər zaman beynəlxalq qurumlar tərəfindən yüksək qiymətləndirilib. Azərbaycanda etnik azlıqların dillərinə daim xüsusi qayğı ilə yanaşılıb. Azlıqların hüquqlarının qorunması, konkret olaraq onların dillərinə qayğı baxımından Azərbaycan örnək ölkələr sırasındadır. Ruslar, yəhudilər, talışlar, ləzgilər, tatlar, gürcülər və digər milli azlıqlar Azərbaycanda mehriban ailə kimi yaşayır, onların məktəbləri, nəşrləri, mətbuat orqanları var.

Qış məktəbinin iştirakçıları Xaçmaz şəhərində Tarix-Diyarşünaslıq Muzeyi, açıq səma altında Şəxsiyyətlər Muzeyi və başqa görməli yerlərlə tanış olublar. Günün sonunda "Öz xalqını təqdim et" musiqili axşam təşkil edilib.

"Heydər Əliyev İli"nə həsr olunan XIII Beynəlxalq Multikulturalizm Qış Məktəbi fevralın 26-dək davam edəcək.

# "Tarın pərdələrini düzənə qurban..."

"Dünya xəzinəsindəki irsimiz"



*əvvəli səh. 1-də*

Bəli, tarın vətəni Azərbaycandır. Azərbaycanın tar ifaçılıq sənəti 2012-ci ilin 3-7 dekabrında Parisdə keçirilən UNESCO-nun Qeyri-Maddi Mədəni İrs üzrə Hökumətlərarası Komitəsinin 7-ci sessiyasında "Simli musiqi aləti tarın hazırlanma və ifaçılıq sənəti" faylı kimi "Bəşəriyyətin qeyri-maddi mədəni irsinin Reprezentativ Siyahısı"na daxil edilib. Tarımızın dünya mirası kimi tanınması, sözsüz ki, Azərbaycan mədəniyyəti adına böyük nailiyyətdir. Bu nailiyyət Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın dəstəyi və aidiyyəti dövlət qurumlarının birgə səyi ilə əldə edilmişdi.

Tar əsasən muğam üçlüyünün tərkibində aparıcı alətdir və muğam sənətinin inkişafında müstəsna əhəmiyyətə malikdir. Muğam sənətinə söykənən Azərbaycanın milli operalarında da solo ifalar tarla müşayiət olunur.

XIX əsrin ikinci yarısından etibarən görkəmli tarzənlər nəsli yetişməyə başlayıb. Mirzə Sadıq (Sadıqcan), Mirzə Mansur Mansurov, Məşədi Zeynal Haqverdiyev, Məşədi Cəmil Əmirov, sonralar Məmmədxan Bakıxanov, Sərvər İbrahimov, Bəhram Mansurov, Həbib Bayramov kimi sənətkarlar bu sənətin yaşadılması və təbliğinə mühüm töhfələr veriblər. Bu ustadların davamçıları olan tarzənlər XX yüzillikdə Azərbaycan tar ifaçılığını daha da zənginləşdiriblər.

Bu gün ölkəmizdə tar ifaçılığı özünün yüksək inkişaf dövrünü yaşayır. Solo ifaçılıqda, ansambllarda, müşayiətdə tar yenə də ön sıralardadır. Bu alətin ustad ifaçılarından tanıdıqları, işinə dəyər verdikləri ustaları xəbər aldıq. Xalq artistləri Vamiq Məmmədəliyev, Ağasəlim Abdullayev, Əməkdar artist Valeh Rəhimov Bakıda tar alətini hazırlayan bir neçə ustanın ünvanlarını nişan verdilər.

Onlardan Bülbül adına Orta İxtisas Musiqi Məktəbində fəaliyyət göstərən Aslan Məhərrəmovun emalatxanasına yollandıq. O, qabaqcıl təhsil işçisidir. 30 ildən çoxdur tar alətinin sirrini gənc nəslə öyrədir. Deyir ki, tar alətini hazırlayan gərək tarı ifa etməyi də bacarsın. O səbəbdən də emalatxanada üç usta birlikdə çalışır. Biz emalatxanada olanda usta Fəxrəddin Cəfərov da böyük sevgi ilə növbəti alətin üzərində işləyirdi.

*– Aslan müəllim, tarzənlərimiz sizə tez-tezmi müraciət edirlər? Tarın hansı hissələrinin daha çox təmirə ehtiyacı duyulur?*

– Ümumi təmirlə bağlı hər gün işimiz var. Sırf alətin hazırlanması da eləcə. Ən çox çanaq hissənin qol ilə birləşən yerinin çatlaması və pərdənin dəyişməsinə təsadüf olunur. Tarda pərdə hər 6-7 aydan bir dəyişməlidir. Şagirdlər 1-2 ildən bir dəyişirlər. Amma peşəkar ifaçılar 6 aydan bir tarın pərdəsini yeniləyirlər.

*– Pərdə nədən hazırlanır və mütəmadi dəyişdirilməsi zərurəti nə ilə bağlıdır?*

– Dəyişdirilməsinə səbəb tarın səsinin həmişə saz qalmasıdır. Pərdə qaramalın ürəyindən hazırlanır. Onun da texniki üsulları var. Qəssablar ürəyin pərdəsini ayırıb saxlayırlar. Biz onların arasından seçim edirik. Çox kiçik ölçüdə olanlar işə yaramır. Soyuducunun buzxanasında saxlanılır. İstifadə ediləndə buzu açılır, üstünün piyləri təmizlənir və tam şəffaf hala gətirilir. Mal ürəyinin pərdəsi bərk olur, yumruqla vursan da, cırılmır.

*– Ən çox kimlər sizə müraciət edir?*

– Tanınmış tarzənlərin, demək olar ki, əksəriyyəti. Xalq artistləri Zamiq Əliyev, Vamiq Məmmədəliyev, Möhlət Müslümov, Firuz Əliyev, Ələkbər Ələkbərov, Elçin Həşimov.

*– Demək, ən ünlü tarzənlərimiz sizi seçirlər.*

– Özümü tərifləmək kimi çıxmasın, mən heç də pis ifaçı olmamışam. Sadəcə, pedaqoqluğu seçdim. Müəllimim görkəmli tarzənimiz Sərvər İbrahimov olub. Uzun illər Həmid Vəkilovdan dərs almışam. İfa etdiyimə görə də tarı gözəl bilirəm. Tar mənim 40 illik dostumdur.

*– Emalatxana neçə ildir fəaliyyət göstərir?*

– Bu ünvanda beş ildir. Məktəbin rəhbərliyinə bu diqqətə görə təşəkkür edirəm. İstedadlı uşaqlara, potensialı olan müəllimlərə burada yüksək dəyər verilir.

*– Ümumiyyətlə, tar alətinə maraq necədir?*

– Ölkə rəhbərliyinin, Heydər Əliyev Fondunun muğama göstərdiyi diqqət nəticəsində tar və kamança ifaçılığına da axın var. Bir neçə il əvvəl həvəs az idi. Muğam müsabiqələrindən sonra tara tələbat artıb. Şagirdlər dərsə həvəslə gəlirlər.

*– Tarın hazırlanması yeni nəsillərə necə ötürülür? Bu sahə üzrə bir peşə məktəbi varmı?*

– Xeyr, bu sənət ustadan şagirdə keçməklə yaşadılır. Özüm alət üzrə ali təhsil almışam. 2002-ci ildən böyük muğam bilicimiz Valeh Rəhimov məni bu sahədə həvəsə gətirdi. Çox ustalara müraciət edirdik. Bəzən yaxşı alınmırdı. Tara lazım olmadan müdaxilə edirdilər. Bunun da səbəbi musiqi təhsilinin olmamasıdır. Valeh müəllimlə tarın ilk dəfə üzünü, pərdəsini dəyişdim. Beləcə, yavaş-yavaş öyrənməyə başladım. Yəqin işim tarzənlərin xoşuna gəldi və iş elə artdı ki, gördüm tək adamın işi deyil. Biz üçümüz də tar sinfini bitirmişik. Tarın özünəməxsus, qəribə xüsusiyyətləri var. Onun qolunu çox cüzi, millimetr geri qoysan, səsi dəyişiləcək. Tarın "canı" oxdan asılıdır. Bu oxun yerini düz oturtmasan, səslənmə itəcək. Tələbə vaxtı bəzən ustaya tar aparmışam. Düzəliş edəndə qolunu tərpədirdi. Bunu etmək olmaz. Oxu millimetrlə arxaya qoysan, sim onu cüzi qabağa gətirəcək və pərdələrdə xoşagəlməz səslər əmələ gələcək. Bəzən tarı təmir edib ifaçıya köklənməmiş şəkildə də verirlər. Gərək usta hazırladığı tarı ifa edib baxsın ki, hansı pərdədə nə çatışmazlıq var. O qədər alışmışam bu işə ki, əlimi pərdələrə sürtəndə nöqsanı görə bilirəm.

*– Tara edilən əlavələrə münasibətiniz necədir?*

– Düzü, yaxşı deyil. Xalq artisti Ramiz Quliyev çoxsaylı müzakirələrdə bunun əleyhinə çıxır. Klassik Azərbaycan tarına toxunmaq olmaz. Tar 4 kökdə səslənməlidir. Avropa və Azərbaycan bəstəkarlarının əsərlərini orkestrlə ifa etmək üçün "do" köklənir, gündəlik səsi "si", "si bemol", bir də var "lya" kökü. Tar bu dörd notda da yaxşı səslənməlidir. Arzulayıram ki, dülgərlikdən tar aləti düzəltməyə gələn ustalar, heç olmasa, emalatxanada köməkçi olaraq musiqi təhsili olan bir şagirdi yanlarında işlə təmin etsin. Qazanc xətrinə alətə xələl gətirmək olmaz. Tar dədə-babadan gəlib, əsrlərin yadigarıdır. Çox eksperimentlərdən keçib. Pərdəni gah plastikdən, gah balıq dərisindən, gah da başqa dərilərdən hazırlayırlar və nəticədə tarın səsi itib gedir.

*– Bu gün hansısa yeni ixtira varmı?*

– "Ratar" adlı alət var, yeni elektro tar. Ondan da tar səsi gəlmir. Türk sazının bütün sxemini yığıblar, sadəcə, çanağı Azərbaycan tarıdır. Məqsəd də budur ki, tar ifa edən uşaqlar əlavə alətə meyillənməsinlər.



*– Bəs tarın əsas özəlliyi nədədir? Alət neçə hissədən ibarətdir?*

– Tar yeganə alətdir ki, onu iki əllə tutub, iki əllə də ifa edirsən. Azərbaycan tarı, əsasən, üç hissədən – çanaq, qol və kəllədən ibarətdir. Tarın çanaq hissəsi tut, qol və kəllə hissələri isə qoz ağaclarından hazırlanır. Ümumi uzunluğu 850 mm, çanağının hündürlüyü 165, eni isə 185 mm-dir. Qoluna 22 pərdə bağlanır. Çanağının üzərinə mal ürəyinin qurudulmuş pərdəsi çəkilir. Müxtəlif diametrli 11 metal simi vardır. Sümük və ya ebonitdən hazırlanmış kiçik mizrabla səsləndirilir.

*– Maraqlı müsahibə üçün təşəkkür edirik.*

Bəli, qədim alətimiz olan tarın adı bu gün təkcə UNESCO-nun siyahısında yer almaqla qalmır, istedadlı tarzənlərimizin sinəsində dünyanın mötəbər səhnələrində səslənir, əcnəbilərin də könlünü oxşayır. Hər pərdəsində yüz sirr gizlədən tar xalqımız var olduqca yaşayacaq...

**Lalə Azəri**

# Tamahına kar olanlar tələbə-aktyorların təqdimatında



Azərbaycanda aktyorluq ixtisasının tədris olunduğu yeganə ali təhsil müəssisəsi Mədəniyyət və İncəsənət Universitetidir. Ölkəmizdə dövlət və özəl olmaqla 50-yə yaxın teatr, səhnə fəaliyyəti ilə məşğul olan qurum, kollektiv var. Bəzi bölgə teatrlarını çıxmaq şərtilə əksəriyyətinin peşəkar aktyor sarıdan korluğu da yoxdur. Əslində, olmamalıdır da. Çünki bu universitetdən ildə ən azı 15 aktyor məzun olur. Teatrı idarə edən hər bir şəxs bilir ki, onun truppasında peşəkar, səhnənin tələblərinə cavab verən aktyorlar olmalıdır. Universitetdə ömrünü sənətə, teatra həsr edən təcrübəli pedaqoqlar çalışır.

Onlardan biri də Xalq artisti, səhnəmizdə və kinomuzda məxsusi izi olan Məmməd Səfadır. Onunla görüş-müsahibə təklifimə "Məni sevindirmək, əməyimi bir də öz qələminizdən oxucunuza çatdırmaq istəyirsinizsə, onlardan yazın. Çünki ən azı ömrümün 3-4 ilini həm də onlara sərf edirəm. Bizdən sonra gələnlər onlardır. Qoy bir az da onları tanıdaq", – deyib əsl müəllim əxlaqı, ustadlarından görmüş olduğu ağayanalıqla tələbələrini nişan verdi...

Universitetin tələbələr qaynayan dəhlizində itməmək üçün "Böyük səhnə"ni xəbər alıram. Nümayişə bir saatdan artıq vaxt qalsa da, müsəlləh əsgərsayağı bütün heyət oradadır. Süleyman Sani Axundovun "Tamahkar" pyesi əsasında "Tamah-kar" adlı tamaşa hazırlanır. Adlarını bir-bir sadalayım: kurs rəhbəri Məmməd Səfa, səhnə danışığı müəllimi Nadir Hüseynov, kafedra müdiri Gülşad Baxşıyeva, rəqslərin quruluşçu və musiqi tərtibatçısı Səbinə Məmmədova, bədii tərtibatçı Fidan Cəfərova; rolları ifa edənlər: Ümid (Ağa Murad), Elnur (İmran), Əzizəxanım (Gülzar), Fəxri (Məhərrəm bəy), Kənan (Hacı Saleh), Könül (Şərəf xanım), Fəridə (Nabat), Fərid (Qulu), Əlizamin (Əliqulu), İlahə (Dəstə başçısı), Ayşən (Rəqqasə), Aytac (İlan).

"Tamahkar" komediyası S.S.Axundovun ilk əsəridir və onu böyük dramaturq M.F.Axundzadənin "Hacı Qara" əsərinin təsiri ilə 1899-cu ildə qələmə alıb. Ədib pyesdə dövrün bir sıra mənfiliklərinə, o cümlədən xəsisliyə, tamahkarlığa, qadınların mənəvi baxımdan əsarətdə saxlanılmasına qarşı çıxır. Sadə və aydın dildə yazılan komediyada müəllif gülüşün müxtəlif təsvir vasitələrindən maraqlı şəkildə istifadə edir.

Əsərdə qaldırılan və təəssüf ki, bu gün də aktual olan probleme zəmanəmizdən baxan Məmməd Səfa müəllim və tələbələri bizə bir həqiqəti də sakitcə izhar edirlər: hər övlad öz valideyninin əsəri, hər insan cəmiyyətinin məhsuludur.

Tamaşa dinamik gənclərin fərqinə vardıqları və bəlkə də tez-tez şahidi olduqları eybəcərlikləri aydın göstərirdi. Oradakı qəhrəmanlar və onların münasibətləri sayəsində biz var-dövlətə hərisliyin cəhənnəm atəşinə çevrilib hər yanı və hər kəsi qarsalayacağına inanırıq. Elə bu inamın yaratdığı qorxu ilə də xəsis və hiyləgər ataya, saf sevgisi üçün mübarizədə uduzan qızcığaza, ondan beş-üç abbası qoparmaq üçün min cür hiyləyə əl atan məddahlara, bir parça qəndi çox gördüyü nökər-naiblərə – bir sözlə, hər kəsə haqq qazandırırıq. Hətta ömrünü siçovulsayağı pul kisəsinin həndəvərində keçirən, başqalarını aldada-aldada ən böyük yanlışı özünə edib tamahında gömülən Ağa Muradı da anlayırıq.

Tələbələrin qəhrəmanlarının hamısı maraqlı, baxımlı və fərqli idilər. İddialı gənclər rəqslərdə, plastik elementlərin icrasında sinxronluğa nail olsalar da, oyun boyu qətiyyən bir-birini təkrarlayıb ümumi çərçivədən çıxmadılar.

Salonda hamıdan arxada, qaranlıq küncdə dayanıb həyəcanını boğmağa çalışan müəllimlərinin özlərinə bəlli zəhmindənmi, yoxsa səhnədən tamaşaçılara qarışan oyun üslubunun verdiyi məsuliyyətdənmi biz əvvəldən sona qədər bu dəliqanlıların tempinin düşdüyünü görmədik.

Tamaşanın ana ideyasına xidmət edən düşünülmüş pərakəndəlikdə belə oturmuş bir mizan vardı. Plastik həll musiqi tərtibatı və rəssam işi də alqışa layiq idi.

Bir sözlə, uzağı 2-3 ilə (dram teatrı və kino aktyorluğu ixtisası üzrə 3-cü kurs tələbələridir) teatr səhnələrində, kinoekranda görəcəyimiz gənclər ifaları ilə həm də ustadlarına alqış qazandırdılar...

**Həmidə Nizamiqızı**

"Heydər Əliyev İli"

# Mədəniyyətimizin böyük hamisi



Ümummilli lider Heydər Əliyev böyük siyasətdə olduğu bir qərinədən artıq dövrdə, doğma xalqının taleyində tarixi rol oynamaqla bərabər, mədəni irsimizin qorunması və zənginləşdirilməsi, milli incəsənətin, ədəbiyyatın inkişafı, respublikada mədəni-maarif işinin qabaqcıl səviyyədə təşkili sahəsində də müstəsna xidmətlər göstərib.

Heydər Əliyevin mədəniyyətə diqqət və qayğısı onun dövlət xadimi kimi fəaliyyətinin bütün mərhələlərində – sovet Azərbaycanına rəhbərlik etdiyi illərdə, Moskvada, SSRİ rəhbərliyində çalışdığı vaxtda və müstəqil Azərbaycana onillik prezidentliyi dövründə tarixin yaddaşına çoxsaylı səhifələrlə yazılıb. O, hər zaman və hər yerdə Azərbaycan mədəniyyətinin böyük hamisi olub. Bununla bağlı illərin xronikasından seçdiyimiz məqamları "Heydər Əliyev İli"nə töhfə olaraq diqqətinizə təqdim edirik...

## İllərin xronikasından (15)

### 1977-ci il 6 noyabr

Azərbaycan KP MK-nın Birinci katibi Heydər Əliyev Bakıda Nəriman Nərimanovun xatirə muzeyinin açılış mərasimində iştirak edib. Heydər Əliyev respublika rəhbərliyi adından zəhmətkeşləri, Bakı sakinlərini görkəmli dövlət xadimi və Azərbaycan xalqının sədaqətli oğlunun xatirəsini yaşadacaq muzeyini açılışı münasibətilə təbrik edib. Qeyd olunub ki, muzeyin zəngin ekspozisiyası humanist maarifpərvərin çoxcəhətli və yorulmaz fəaliyyətini əks etdirir.

### 1977-ci il 10 dekabr

RSFSR-in Ulyanovsk şəhərində Nəriman Nərimanovun abidəsinin açılış mərasimi keçirilib. Azərbaycan KP MK-nın Birinci katibi Heydər Əliyev mərasimdə nitq söyləyib.

### 1977-ci il 27 dekabr

Azərbaycan KP MK-nın plenumunda məruzə ilə çıxış edən Heydər Əliyev respublikada mədəniyyət sahəsinin daha da inkişaf etdirilməsi üçün görülməli işlər, bu sahədə mövcud problemlər barədə də danışıb.

*"...Zəhmətkeşlərin ideya-siyasi, əmək, mənəvi və estetik tərbiyəsində biz mədəniyyət müəssisələrinin imkanlarından tamamilə istifadə etməliyik. Lakin mədəniyyət müəssisələrinin bir çoxu öz işini primitiv qurur və zəhmətkeşlərin daim artan mədəni tələbatını nəzərə almır. Kənd yerlərində mədəni-maarif işi daha zəif aparılır. "Kənd əhalisinə mədəni xidməti daha da yaxşılaşdırmaq tədbirləri haqqında" Sov.İKP MK-nın və SSRİ Nazirlər Sovetinin qərarı ilə əlaqədar olaraq mədəni-maarif müəssisələrinin fəaliyyətinin əsaslı surətdə yaxşılaşdırmaq sahəsində tədbirlər sistemi hazırlanıb həyata keçirilməlidir.*

*Yaradıcılıq ittifaqları qarşısında böyük və məsul vəzifələr durur. Özlərinin bütün fəaliyyəti ilə onlar bədii yaradıcılığın daha da inkişaf etməsinə, ölkənin və respublikanın həyatında dərin dəyişikliklərin ədəbiyyat və incəsənət əsərlərində parlaq şəkildə əks olunmasına, yeni insanın mənəvi simasının, xalqın qəhrəmanlıq ənənələrinin açılıb göstərilməsinə, cəmiyyətin mənəvi sərvətlərinin artırılmasında bədii yaradıcılıqla məşğul olan ziyalıların, mədəniyyət müəssisələrinin rolunun yüksəlməsinə kömək etməlidirlər...".*

### 1978-ci il 4 fevral

Bakı şəhərində böyük bəstəkar Qara Qarayevin anadan olmasının 60 illiyi münasibətilə təntənəli gecə keçirilib. Bəstəkara "Lenin" ordeni və "Sosialist Əməyi Qəhrəmanı" fəxri adının "Oraq və çəkic" qızıl medalı təqdim edilib. Heydər Əliyev mərasimdə çıxış edib.

*"Öz yaradıcılıq fəaliyyətinin qırx ili ərzində böyük qabiliyyətə və parlaq istedada malik olan Qara Qarayev tükənməz əzmkarlığı, fədakarlığı, əməksevərliyi sayəsində böyük və şanlı yol keçmişdir. Onun formaca milli yaradıcılığı respublikamızın hüdudlarından çox-çox kənara çıxmışdır. Dərin beynəlmiləlçilik ruhu ilə aşılanmış bu yaradıcılıq bütün sovet xalqının sərvətinə çevrilmişdir. Bu gün Qara Qarayev görkəmli bəstəkarlar arasında haqlı olaraq layiqli yer tutur...*

*Əsası böyük Üzeyir Hacıbəyov tərəfindən qoyulmuş Azərbaycan professional musiqisinin gözəl ənənələrini bəstəkar müvəffəqiyyətlə davam və inkişaf etdirir. Xalqın yaratdığı nə varsa, hamısından bacarıqla istifadə edən, öz yaradıcılığını rus və dünya klassik musiqisinin nailiyyətləri ilə zənginləşdirən Qara Qarayev özünəməxsus bəstəkarlıq məktəbi, təkcə Azərbaycan musiqi mədəniyyətinin deyil, həm də bütün sovet musiqi mədəniyyətinin inciləri sayılan gözəl əsərlər yaratmışdır. Onun yaradıcılığı fəlsəfi dərinliyi, bədii gözəlliyi, xüsusi koloriti ilə fərqlənir. Musiqi yaradıcılığını elmi tədqiqat işi ilə əlaqələndirən Qara Qarayev musiqişünaslığın nəzəri problemlərinin işlənməsinə böyük xidmət göstərmişdir.*

*Böyük ictimai xadim olan Qara Qarayev xalqlar dostluğunu möhkəmləndirmək üçün bu sahədə də çox iş görür, beynəlxalq meydanda dövlətimizi ləyaqətlə təmsil edir. İndi Qara Qarayev yaradıcılıq qüvvələrinin çiçəkləndiyi bir dövrü keçirir və o, şübhəsiz, hərarətli qəlbi və parlaq zəkası ilə öz xalqına gözəl əsərlər bəxş etmək üçün hələ çox iş görəcəkdir...".*

***

Mədəniyyət sahəsində qabaqcıl fəaliyyət, incəsənət xadimlərinin yaradıcılıq nailiyyətləri dövlət tərəfindən qiymətləndirilirdi.

### 1977-ci il 14 noyabr

Mətbuat sahəsində fəal işlədiklərinə görə və "Pioner" jurnalının 50 illiyi ilə əlaqədar olaraq jurnalın redaktoru Nəriman Süleymanova "Əməkdar mədəniyyət işçisi" fəxri adı verilib, bir neçə əməkdaş isə Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin fərmanı ilə təltif edilib.

### 1977-ci il 5 dekabr

Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin fərmanı ilə təsviri sənət sahəsində xidmətlərinə görə bir qrup şəxsə fəxri adlar verilib:

"Xalq rəssamı" fəxri adı – Elbəy Rzaquliyev, Elmira Şahtaxtinskaya.

"Əməkdar incəsənət xadimi" – İbrahim Zeynalov (heykəltəraş), Oqtay Sadıqzadə (rəssam), Lətif Feyzullayev (rəssam), Elcan Şamilov (heykəltəraş).

"Əməkdar rəssam" – Hüseyn Əliyev, Davud Kazımov, Vidadi Nərimanbəyov, Xalidə Səfərova.

"Əməkdar mədəniyyət işçisi" – Əziz Əliyev, Rüfət Rəfizadə (hər ikisi sənətşünas).

**Hazırladı: V.Orxan**

*(davamı var)*

Ənvər Məmmədxanlı – 110

# Nəsrimizin qızıl qönçələrini yaradan ədib

Bu il Xalq yazıçısı, kinodramaturq, tərcüməçi Ənvər Məmmədxanlının (1913–1990) anadan olmasının 110 illiyidir. Bu münasibətlə görkəmli ədibin həyat yolu və yaradıcılığı ilə bağlı bəzi maraqlı məqamları diqqətə çatdırırıq.



Ənvər Qafar oğlu Məmmədxanlı 1913-cü ildə Göyçay şəhərində dünyaya göz açıb. Orta məktəbi bitirdikdən sonra N.Nərimanov adına Sənaye Texnikumuna qəbul olunub. Təhsilini başa vurub ixtisası üzrə müxtəlif müəssisələrdə işləyib. Eyni zamanda Azərbaycan Neft və Kimya İnstitutunda (indiki Dövlət Neft və Sənaye Universiteti) qiyabi oxuyub. Sonra Moskvada Ali Kinematoqrafiya İnstitutunda təhsil alıb.

Ədəbi fəaliyyətə 30-cu illərdə başlayan yazıçının "Burulğan", "Bakı gecələri" (hekayələr), "Balaca Nərgiz", "Hekayələr", "Qızıl qönçələr", 2 cildlik "Seçilmiş əsərləri" və s. kitabları işıq üzü görüb. Əsərləri bir sıra xarici dillərə tərcümə olunub. "Şərqin səhəri" (1947), "Od içində" (1951) pyesləri, "Şirvan gözəli" (1957) lirik komediyası tamaşaya qoyulub. "Şirvan gözəli" "Zaqafqaziya teatr baharı" festivalında I dərəcəli diploma layiq görülüb. 1957-ci ildə Akademik Dram Teatrında tamaşaya qoyulan "Şərqin səhəri" əsəri isə SSRİ Dövlət mükafatına layiq görülsə də, mükafat alanların siyahısında müəllifin adı olmayıb.

Ənvər Məmmədxanlı "Azərbaycanfilm" kinostudiyasında ssenari redaksiyasının baş redaktoru olub, maraqlı kinossenarilər yazıb. Ssenariləri əsasında "Babək", "Bəxtiyar" (1942, qısametrajlı film), "İntizar", "Cazibə qüvvəsi" və s. filmlər çəkilib. 1938-ci ildən Azərbaycan Yazıçılar Birliyinin üzvü olub. 1963-cü ildə "Əməkdar incəsənət xadimi", 1987-ci ildə "Xalq yazıçısı" fəxri adlarına layiq görülüb. Yazıçı 1990-cı il dekabrın 19-da Bakıda vəfat edib.

### "Sən necə fevralın 29-da anadan ola bilərsən..."

Mənbələrdə Ənvər Məmmədxanlının doğum günü 29 fevral göstərilsə də, əslində, 1913-cü ildə fevral 28 gün olub. Məlumdur ki, təqvimdə fevral 4 ildən bir 29 gün olur və o, mütləq cüt rəqəmli ilə (1904, 1908, 1912 və s.) düşməlidir. Ə.Məmmədxanlının yaxınları isə doğum gününü, hər il olsun deyə, 28 fevralda qeyd edirmişlər. Xalq yazıçısı Anar "Həyatım ağrıyır" xatirə-povestində bu barədə yazır: "1913-cü il fevralın 28-i Ənvər Məmmədxanlının doğum günü deyil. Ənvər Məmmədxanlı fevralın 29-da anadan olub və fevralın 29-u ancaq dörd ildən bir olur. Ailədə (Xalq şairi Rəsul Rza ilə həm xalaoğlu, həm əmioğlu olublar) biz həmişə bu mövzuda zarafat edərdik. Bir zaman hətta elə düşünürdük ki, dəbdəbəni, hay-küyü sevməyən Ənvər qəsdən, ad gününü qeyd eləməməkçün belə bir günü – hər il olmayan bir günü – özünün ad günü elan edib. Axı sən necə fevralın 29-da anadan ola bilərsən ki, 1913-cü ildə fevral 28-dən olub? – deyirdik və bizə elə gəlirdi ki, bu tutarlı dəlillə onun "uydurmasını" ifşa edəcəyik. Ənvər gülümsünür: – Bəs onu bilmirsiniz ki, o vaxtdan bəri təqvim dəyişib və on üç gün qabağa çəkilib? Amma hər halda hər il bu gün, yəni il 29-dan olanda 29-da, 28-dən olanda 28-də onun evinə gedər, təbrik edərdik".

Bu qarışıq təqvim "haqq-hesabı"ndan belə nəticəyə gəlmək olar ki, yazıçı 1913-cü ildə köhnə təqvimlə fevralın 16-da doğulub. 1918-ci ildən sonra yeni təqvimə keçilərkən (13 gün əlavə olunmaqla), avtomatik olaraq 16-nın üzərinə 13 əlavə olunub və sənədlərdə də 29 fevral göstərilib. Fərqinə də varılmayıb ki, 1913-cü ildə fevral qısa ay olub. Bu hesablamanı əsas götürsək, Ənvər Məmmədxanlının doğum günü yeni təqvimlə 1 mart edir...

### "Burulğan"dan başlanan ədəbiyyat yolu

Ə.Məmmədxanlı ədəbiyyata 1934-cü ildə qələmə aldığı "Burulğan" povesti ilə gəlib. Povest 30-cu illər üçün xarakterik olan fəhlə həyatı mövzusunda yazılıb. Tənqidçi, filologiya üzrə elmlər doktoru Vaqif Yusifli "Günəş doğacaq, qönçələr açılacaq" məqaləsində qeyd edir ki, "Burulğan"da Ə.Məmmədxanlının gələcək nəsr və dram əsərləri üçün səciyyəvi olacaq fərdi üslubu aydın nəzərə çarpır. O, müxtəlif mövzulu əsərlərində həmin fərdiliyə sadiq qalıb.

### "37"ni qaytara bilməzsiniz!"

Yazıçı Mövlud Süleymanlının "Dəyirman" povesti haqsız tənqidlərə məruz qalanda Ə.Məmmədxanlı onun müdafiəsinə qalxıb. 37-ci ildə Azərbaycan ziyalılarını təpiklə, yumruqla döyən NKVD müstəntiqlərinin varislərinə həmin iclasda: "Bəsdir daha, keçməz o məşum illərin oyunları, o illəri qaytara bilməyəcəksiniz", – deyib.

### Küsüb-barışan yazıçılar

Ə.Məmmədxanlının Xalq yazıçısı Mehdi Hüseynlə çox qəribə münasibətləri olub. Gah küsüb, gah da barışıblar. Bir gün respublikanın rəhbəri Mir Cəfər Bağırov hər iki yazıçıya neftçilər mövzusunda birlikdə ssenari yazmağı təklif edib. Hər ikisi birlikdə işləməkdən imtina etsələr də, bir neçə il sonra "Fətəli xan" (1947) filminin ssenarisini birgə yazıblar.

### Mükəmməl film – yarımçıq roman

Yazıçının ssenarisi əsasında 1979-cu ildə "Babək" filmi (rejissor Eldar Quliyev) lentə alınıb. Ə.Məmmədxanlı ömrünün müdrik çağlarında "Babək" romanını qələmə alır. Ancaq əsəri tamamlamağa ömür vəfa etmir. Onun ölümündən sonra Anar həmin romanı və "Babək" kinossenarisini birləşdirib "Azərbaycan" jurnalında çap etdirib. Xalq yazıçısı Anar bu barədə belə deyib: "Ənvər Məmmədxanlı ömrünün son iyirmi ilində Babək mövzusu üzərində işləyirdi. Nə yazıq, əcəl yazıçıya bu romanı tam şəkildə oxucusuna çatdırmaq imkanı vermədi. Ənvər müəllim yaradıcılıq prosesi haqqında heç kəslə, ən yaxın adamlarıyla belə danışmağı sevməzdi, roman üzərində işin nə yerdə olduğunu, əsərin bitməsi möhləti haqqında sorğu-suallarımızı da zarafata salıb cavabsız qoyardı. Yazıçının qəfil ölümü, yaradıcılıq irsi haqqında bir vəsiyyət edə bilməməsi romanın taleyini də məchul, müəmmalı bir problemə çevirdi".

Yazıçının bacısı Həbibə Məmmədxanlının fədakarlığı, inadı və səbri ilə "Babək" romanının birinci hissəsi tapılıb. Bu roman ərəb əlifbası ilə karandaşla yazılıb. Çapa hazırlanmış əlyazması romanın birinci hissəsidir və buradakı hadisələr Babəkin yalnız gənclik illərini əhatə edir. Əlyazmasının sonunda birinci hissənin bitirilmə tarixi kimi 1984-cü il göstərilib, 1983-cü ildə "Bakı" qəzetinin 10, 11, 13, 14 və 16 may tarixli nömrələrində dərc olunmuş fəsil də birinci hissəyə aiddir.

Anar bu barədə yazır: "Babək" romanının ikinci hissəsi, ya heç olmasa, ayrı-ayrı fəsilləri varmıdır? Bu suala hələ ki, tam dəqiq cavab vermək mümkün deyil, bunun üçün yazıçının arxivində uzun illər araşdırmalar aparmaq lazımdır".

**Hazırladı: N.Məmmədli**

# 31 il əvvəl çəkilən şəklin tarixçəsi

## "Fotoqraflıq həyatımın ən ağır səhnəsi idi..."

Xocalı faciəsi baş verəndən sonra ilk günlər idi. O vaxt çalışdığım "Səhər" qəzeti redaksiyasından məni Təzəpir məscidində Xocalıdan gətirilən meyitlərin şəklini çəkməyə göndərdilər. İndiki kimi yadımdadır, məscidin giriş pilləkənlərinin qarşısında yerə dama-dama naxışlı şal salınmışdı və onun üstündə iki məsum körpə uşaq meyiti var idi. Onlardan birinin dizində güllə yarasının yeri aşkar görünürdü, o birisinin başının arxa hissəsi yox idi. Uşaqların üz-gözü dəhşətli dərəcədə tanınmaz vəziyyətə salınmışdı. Mən həmin hadisəyə qədər, o gündən sonra da xeyli şəhid, yaralı əsgər və s. şəkil çəkmişəm. Lakin indiyə qədər mənə o cür dəhşətli heç bir səhnə təsir etməyib.




Şəkli çəkib işə getdim. İşə çatıb çəkdiyim plyonkanı eyni redaksiyada çalışdığım tanınmış fotoqraf Rauf Umuda verib onları aşkarlayıb çap etməyi xahiş etdim. Özüm isə uzun müddət sarsıntı keçirdim...

Bunu tanınmış fotoqraf Şahin Abasəliyev 31 il öncə çəkdiyi və o vaxtdan Xocalının foto-ağısı kimi yaddaşlara həkk olunan şəkil haqqında danışarkən deyib.

Xocalı hadisələri baş verən vaxt "Səhər" qəzetində işləyən Şahin sonralar həmin fotonun Azərbaycan, rus və ingilis dillərində çap olunan soyqırımından bəhs edən "Xocalı sonuncu gün" jurnalının üz qabığında dərc olunduğunu, daha sonralar isə müxtəlif qəzet və jurnallarda işıq üzü gördüyünü deyib.

Şahin deyib: "Sonradan öyrəndim ki, Xocalıda qəddarcasına öldürülən bu qızcığazları mərhum telejurnalist Çingiz Mustafayev vertolyotla Bakıya gətirib. Həmin şəkildəki qızın biri Gülmirə Xocalının müdafiəçilərindən olan Murad Mehdiyevin qızıdır. Onun 5 yaşı olub, atasını və iki bacısını erməni quldurları qətlə yetiriblər, anası Nanəni isə əsir götürüblər. Fevralın 26-cı gecəsi şəhərin 70-ə yaxın sakini ilə birlikdə Qaraqayada düşmən güllələrindən yayınmaq istəsələr də, bu, mümkün olmayıb. Həmin dəstədən yalnız 4 nəfər – Gülmirənin anası, qardaşı Arzu, bir də şəhər sakini Şahnaz və qızı salamat qalıb, qalanlarının hamısını erməni hərbçiləri amansızcasına qətlə yetiriblər. Digər qızcığazın isə kimliyini müəyyən edə bilmədiklərindən ona Nişanə adı verilib. Fevralın 27-də Təzəpir məscidində yuyulub kəfənlənəndən sonra onları Şəhidlər xiyabanında dəfn ediblər.

Həmin hadisə mənim 35 ilə yaxın fotoqraflıq həyatımın ən ağır və dəhşətli səhnəsidir. Belə bir səhnəni heç kimə arzulamıram – nə həmin faciəni yaşamağı, nə də onu əbədiləşdirməyi...".

# "Mən Qədirəm!..."

O, həyatının mənasını kinoda tapmışdı. Filmlərə çəkilməklə, ekranın görünən tərəfində olmaqla kifayətlənmir, onun hər əziyyətinə qatlanırdı. Rejissor assistenti, II rejissor, film direktoru, mühəndis, inzibatçı kimi də titrlərdə görünürdü. 69 illik ömrünün 39 ilini kinoya həsr etmişdi...

Bahadur Atabala oğlu Əliyev 1933-cü il fevralın 24-də Masallı rayonunun Sığıncaq kəndində dünyaya göz açmışdı. Uşaqlıqdan özünəməxsus keyfiyyətləri olduğunu duymuş, gələcək həyat yolunu da özü təyin etmişdi: aktyor olacaqdı.



Orta məktəbi bitirdikdən sonra Azərbaycan Dövlət Teatr İnstitutunun (indiki ADMİU) Kino və dram aktyorluğu fakültəsinə daxil olur. İnstitut həyatı, görkəmli sənətkarlardan aktyorluq sənətinin sirlərinə yiyələnməsi, kurs tamaşalarında rol alması onu daha da həvəsləndirir. 1956-cı ildə institutu bitirir və "Bakı" kinostudiyasına (indi "Azərbaycanfilm") göndərilir, rejissor assistenti vəzifəsinə işə qəbul edilir. 1957–1959-cu illərdə ekranlaşdırılan "Kölgələr sürünür", "Bir məhəllədən iki nəfər", "Onun böyük ürəyi" və "Onu bağışlamaq olarmı?" filmlərində epizodik rollarda çıxış edir. Kiçik, bəzən heç adı olmayan, kütləvi səhnələrdə görünsə də, böyük arzularla yaşayır, yeni filmlərin, qəhrəmanların xəyallarını qururdu.

Amma arzular bu dəfə yarı yolda qalır. Böyük həvəslə işlədiyi bir vaxtda – 1959-cu ildə "kinostudiyada işin həcmi azaldığına görə" işdən azad olunur. Amma sənətdən soyumur, Bakıdakı fiziki məhdudiyyətli (lal-karlar) insanlar üçün ixtisaslaşan mədəniyyət evinə bədii rəhbər vəzifəsinə işə düzəlir. Kinostudiya ilə də əlaqəsini kəsmir. Bu müddətdə "Əsl dost" filmində Fərmanın köməkçisi, balıqçı, "Qəribə əhvalat"da milis işçisi rollarını ifa edir.

1961-ci ildə yenidən "Azərbaycanfilm"ə qayıdan aktyor bu dəfə korrektor ştatına götürülür. Aktyor kimi "Telefonçu qız", "Əmək və qızılgül", "Romeo mənim qonşumdur" filmlərinə çəkilir, "Böyük dayaq"da komsomolçu, "Möcüzələr adası"nda neftçi, "Sehrli xalat"da xanın əsgəri rollarında çıxış edir.

Geniş tamaşaçı auditoriyası onu daha çox "Ulduz" filmindən (1964) tanıyır. Bəstəkar Süleyman Ələsgərovun eyniadlı operettasının motivləri əsasında çəkilmiş ekran əsərinin sevilən qəhrəmanlarından biri də kolxoz sədri Qədirdir. Böyük tamaşaçı rəğbəti qazanmış filmdə Lütfəli Abdullayev, Nəsibə Zeynalova, Hacıbaba Bağırov, Bəşir Səfəroğlu, Siyavuş Aslan kimi sənətkarlar rol alıblar. "Ulduz"un ulduzları sırasında Bahadur Əliyev də öz parlaqlığı ilə seçilə bildi.

"Ulduz"da parlayan Bahadur Əliyev bu dəfə də umduğunu – yeni filmlərdə əsas rolları deyil, tam əksini bulur. 1965-ci ildə böyük inzibatçı vəzifəsinə keçirilir. Yenə də ruhdan düşmür, epizodik rollarla kifayətlənməli olduğunu anlayır. "Dağlarda döyüş", "Uşaqlığın son gecəsi", "Yenilməz batalyon" bədii, "Yun şal" bədii televiziya filmlərində çəkilir. "İstintaq davam edir" filmində kapitan Əliyev, "İyirmialtılar" tarixi-inqilabi filmində gənc fəhlə...

1968-ci ildən kinostudiyanın dublyaj qrupu direktorunun müavini vəzifəsinə təyin olunur və 1973-cü ilə kimi bu işdə çalışır. Xarici və sovet filmlərinin Azərbaycan dilində səsləndirilməsində aktyor kimi iştirak edir, inzibatçı kimi dublyaj işini təşkil edir. Bu dövrdə ekranlaşdırılan "Axırıncı aşırım", "Bizim küçənin oğlanları", "Həyat bizi sınayır", "O qızı tapın" və s. kinolentlərdə yenə epizodlarda görünür.

Nəhayət, 1973-cü ildə kinoaktyor ştatına keçirilir. Ali kateqoriyalı kinoaktyor vəzifəsində təqaüdə çıxana kimi – 1995-ci ilə qədər çalışan Bahadur Əliyevi "Babək", "Dərviş Parisi partladır", "Evlənmək istəyirəm", "Özgə ömür" filmlərində də görürük. Bu rollar yenə epizodik olsa da, hər birini böyük həvəslə, baş qəhrəman şövqü ilə oynayıb. Çünki o özünü bütünlüklə kino sənətinə həsr etmiş, həyatının mənasını bu sənətdə tapmışdı... 2002-ci ilin 16 sentyabrınadək, yəni son rolunu dublsuz ifa edənədək də belə yaşadı...

**Həmidə**

# "Yetir doğma yurda bu mahnıları..."

Bizim Müşfiqimiz kimi məzarı bilinməyən şair. Tanınmış tatar şairi Musa Cəlilin adı çəkiləndə, yaddaqalan poetik nümunələri ilə yanaşı, o həm də belə xatırlanır.

Musa Mustafa oğlu Cəlilov (Musa Cəlil) 15 fevral 1906-cı ildə Rusiyanın Orenburq vilayəti Şarlık rayonunun Mostafa kəndində dünyaya göz açıb. İbtidai təhsilini mollaxanada alır. Üç il Orenburqdakı "Hüseyniyyə" mədrəsəsində təhsilini davam etdirir. Erkən çağlardan poeziyaya maraq göstərir. "Xoşbəxtlik" adlı ilk şeiri 1919-cu ildə "Qızıl ulduz" qəzetində dərc olunur. 1925-ci ildə şeirlərindən ibarət "Biz gedirik" adlı ilk kitabı işıq üzü görür. O, bir müddət sonra Kazan şəhərinə gedir. "Tatarıstan" qəzetində işə düzəlir. İşləyə-işləyə fəhlə fakültəsinə yazılır. Sonra Moskva Dövlət Universitetinin Ədəbiyyat fakültəsinə qəbul olunur. 1931-ci ildə təhsilini müvəffəqiyyətlə başa vurur. Həmin ərəfədə "Ordenli milyonlar", "Şeirlər və poemalar" adlı kitabları çapdan çıxır. Bu, şairin geniş və zəngin yaradıcılıq potensialını göstərir. O, həmçinin A.Puşkin, N.Nekrasov, T.Şevçenko və başqalarının şeirlərini ana dilinə tərcümə edir.



Araşdırmalarda qeyd edilir ki, tatar xalqının mədəni həyatının elə bir sahəsi yoxdur ki, orada Musa Cəlilin parlaq izi olmasın. O, tatar poeziyasının inkişafında müstəsna rol oynayıb, uşaq pyesləri qələmə alıb, opera teatrının yaradılmasında xidmətlər göstərib. "Poçtalyon", "Direktor və günəş" adlı poemaları oxucuların marağına səbəb olub. "Altınçeç" ("Qızılsaçlı") adlı libretto ilə tatar milli operasının yaradılmasında yaxından iştirak edir. Ardınca "Eldar" poema-librettosunu ərsəyə gətirir.

Tatarıstan Yazıçılar İttifaqına rəhbər təyin edilən Musa Cəlil gənclərin yaradıcılıq sahəsində inkişafı üçün böyük səy göstərir, rəssam, bəstəkar və aktyorların püxtələşməsi üçün əlindən gələni əsirgəmir.

Musa Cəlil 1935-ci ildə Moskva Dövlət Universitetində açılan Tatar opera studiyasına dəvət alır. Studiya 1938-ci ildə Tatarıstana köçürüləndə o da Kazana qayıdır. Studiyanın ədəbi hissə müdiri vəzifəsində işini davam etdirir. Şair 1939-cu ildə SSRİ Yazıçılar İttifaqı Tatarıstan şöbəsinin katibi seçilir. Lakin II Dünya müharibəsi onun da həyat yolunu dəyişir. 1941-ci ilin yayında "Otvaqa" ("İgidlik") cəbhə qəzetində hərbi müxbir kimi fəaliyyətə başlayır. 1942-ci ildə Voloxov cəbhəsində ağır yaralanır və əsir düşür. Ağır işgəncələrə məruz qalan, taleyi ilə barışmayan şair ruzigarın acı yellərindən kömək umur. Əhvalından vətənin də xəbər tutmasını istəyir:

*Əs, ey yad ölkənin acı rüzgarı,*
*Yollan düzənliklə, dağla, meşəylə.*
*Yetir doğma yurda bu mahnıları,*
*Onu əhvalımdan xəbərdar eylə.*

1945-ci ilin may ayının əvvəllərində sovet əsgərləri vuruşa-vuruşa Moabit həbsxanasının həyətinə girir. Döyüşçülərdən biri rus dilində yazılan bir kağız tapır. Əsgər vərəqi qaldırır və əli ilə hamarlayır. Sonra kağız parçasını oxuyur: "Mən tatar şairi Musa Cəliləm. Moabit həbsxanasında yatıram. Yəqin ki, faşistlər məni güllələyəcək. Xahişim budur ki, bu qeydləri oxuyan şəxs ruslar Berlini azad etdikdən sonra bu barədə Moskvaya və Kazana xəbər versin. Həm də Fadeyevə, Qladkova, Korneyçuka və başqa yazıçılara mənim salamımı yetirsin...". M.Cəlilin məktubu Yazıçılar İttifaqının sədri Fadeyevə göndərilir.

Məktub bir müddət sonra SSRİ Yazıçılar İttifaqının sədri Aleksandr Fadeyevə təqdim edilir.

II Dünya müharibəsi başa çatdıqdan sonra əsirlikdə faşizmə qarşı mübarizə aparan digər əsgərlər kimi, Musa Cəlilin də həyatı araşdırılır. Şairin antifaşist fəaliyyəti məlum olsa da, nəzərə alınmır. Əsir düşərkən özünü öldürmədiyi, almanlarla əməkdaşlıq etdiyi bildirilir və ən qatı cinayətkar elan edilir. Doğma vətənində ailəsi həbs edilərək sürgün olunur...

Aradan illər keçdikdən sonra belçikalı antifaşist Andre Timmermans şairin Moabitdə cib dəftərçəsinə yazdığı 115 şeirini Brüsseldəki SSRİ konsulluğuna təhvil verir. Şairin antifaşist təşkilatın üzvü olduğunu, buna görə də edam edildiyini (1944) bildirir. Həmin cib dəftərçəsi konsulluq tərəfindən SSRİ Xarici İşlər Nazirliyinə göndərilir. Stalinin ölümündən sonra Musa Cəlilin işi bir daha araşdırılır. Şairə ölümündən sonra, 1956-cı ildə Sovet İttifaqı Qəhrəmanı adı verilir. Əsərləri yenidən mətbuat səhifələrində yer alır. "Moabit dəftəri" silsiləsi müxtəlif dillərə tərcümə edilir. Adı, xatirəsi əbədiləşdirilir...

Özünün yazdığı kimi:

*Mən ölməyəcəyəm, yox, nəğmələrim*
*Bu dünya durduqca məşəltək yanar.*
*Zəfərlərlə ölən bir qəhrəmana*
*"Öldü" söyləməyə kimin haqqı var?!*

**Savalan Fərəcov**

# "Ana dili – milli varlığın təməli" kitabının təqdimatı olub

Ədəbiyyatşünas, Bakı Dövlət Universiteti (BDU) Azərbaycan ədəbiyyatı tarixi kafedrasının professoru Vaqif Sultanlı və yazıçı-publisist İrəc İsmayılın birgə tərtib etdiyi "Ana dili – milli varlığın təməli" kitabı çapdan çıxıb. Fevralın 21-də – Beynəlxalq Ana Dili Günündə Azərbaycan Yazıçılar Birliyinin "Natəvan" klubunda kitabın təqdimatı keçirilib.

Tədbirin aparıcısı türkoloq, professor Tofiq Məlikli Azərbaycan dilinin siyasi statusu ilə bağlı məqamları vurğulayıb, Sovet İttifaqının dağılmasından sonra milli dilin inkişafı istiqamətində görülən və görülməsi zəruri olan məsələlərə toxunub.

Akademik Nizami Cəfərov Azərbaycan türkcəsinin mifoloji qatları, folklor qaynaqları, tarixi kökləri, türk dilləri içərisində yeri, o cümlədən



çağdaş problemlərinə toxunub, həmçinin dilin adı ilə bağlı bu və ya digər şəkildə davam etməkdə olan mübahisələrə aydınlıq gətirib.

Vaqif Sultanlı kitabın nəşrini zəruri edən məqamlardan söz açıb. Alim Güney Azərbaycanda qırx milyondan artıq türkün ana dilində təhsil imkanlarının olmamasını milli dili təhdid edən amil kimi dəyərləndirib.

BDU-nun Multimedia və elektron kommunikasiya kafedrasının professoru Qulu Məhərrəmli ana dilinin saflığının qorunmasında mətbuatın rolundan və televiziyaların üzərinə düşən vəzifələrdən bəhs edib.

Professorlar Həbib Zərbəliyev, Rüstəm Kamal, Almaz Əliqızı, Rahid Ulusel, türkiyəli alim Seyfəddin Altaylı, Misirin Ayn Şəms Universitetinin professoru Əhməd Sami əl-Aydi, folklorçu alim Əli Şamil, yazıçı Bəsti Əlibəyli və başqaları təqdim olunan kitab barədə fikir və mülahizələrini bildiriblər.

# "Sizin üçün"

## Beynəlxalq Qadınlar Gününə həsr olunmuş konsert

Martın 3-də Mədəniyyət Nazirliyinin dəstəyi ilə Azərbaycan Dövlət Uşaq Filarmoniyasında Beynəlxalq Qadınlar Gününə həsr olunmuş "Sizin üçün" adlı konsert proqramı təşkil ediləcək.

Konsertdə Dövlət Uşaq Filarmoniyasının nəzdində fəaliyyət göstərən "Şəms" uşaq xoru, vokal sinfi, "Musiqili uşaq teatrı", müxtəlif yaş qruplarından ibarət rəqs kollektivi rəngarəng musiqi nömrələri ilə çıxış edəcək.

# "Kino gözlə söz arasında"

## "Kinematoqrafçının kitabxanası" seriyasından

Azərbaycan Kinematoqrafçılar İttifaqı (AKİ) İdarə heyətinin üzvü, sənətşünas, ssenarist Nadir Bədəlovun "Kino gözlə söz arasında" kitabı işıq üzü görüb.

AKİ-nin maliyyə dəstəyi ilə "Kinematoqrafçının kitabxanası" seriyasından nəşr edilən kitab 3 hissədən ibarətdir: "Filmin dramaturgiyası", "Filmin estetikası", "Filmlərə baxış".

İlk bölümdə söz və sözün izahı, dramaturgiya və filmdə dramaturgiyanın rolu, mimesis – təqlid gerçəkliyin əksi kimi, realizm, Hegel – dünyanın dramaturji qəlibi kimi, Aristotel təlimi və s. məqamlara toxunulub.

İkinci bölümdə filmin estetikasında həlledici olan rejissorluq haqqında bəhs edilir.

"Filmlərə baxış" bölümündə Azərbaycan kinoklassiklərindən Rüstəm İbrahimbəyovun, Həsən Seyidbəylinin filmləri, müasir rejissorlardan Emil Quliyevin "Pərdə" trilogiyası, dünya klassikasından Roman Polanski və Nuri Bilgə Ceylanın filmləri fərqli rakursdan təhlil edilir.

Kitabı xüsusilə gənc kinodramaturqlar üçün maraqlı edən cəhət dünyada ən populyar ssenari ustadları – Con Trubi, Sid Fild, Kristofer Voqler və Robert Makkinin müəllifi olduğu təlimlərdən ətraflı söz açılmasıdır.

"Kino gözlə söz arasında" kitabının layihə rəhbəri AKİ-nin katibi, rejissor Əli İsa Cabbarov, redaktoru Məqsəd Nur, rəssamı Sevinc Quliyevadır.

# Qarabağın tarixi-memarlıq abidələri rus rəssamların qrafik əsərlərində

## Bu təsvirlər həm də ermənilərin tarixi irsimizlə bağlı uydurmalarına tutarlı cavabdır

Azərbaycanın Qarabağ bölgəsinin tarixi-memarlıq abidələri zaman-zaman bir çox xarici rəssamların marağını cəlb edib. 1930-40-cı illərdə yerli və Azərbaycana dəvət olunmuş bir çox rusiyalı rəssam, etnoqraf, memar və arxeoloqlar abidələrin araşdırılması və bərpa işlərinin aparılması üçün çəkdikləri rəsmlər, eskizlər ölkəmizin bir çox bölgələrində, o cümlədən Naxçıvanda, Qarabağda yerləşən Orta əsr abidələrinin tədqiqi və bərpası işində əvəzsiz mənbədir.

Azərbaycan Milli İncəsənət Muzeyində Azərbaycan rəssamları ilə yanaşı, Avropa, Rusiya, Şərq ölkələrinə və s. aid olan təsviri və dekorativ sənət nümunələri qorunub saxlanılır və muzeyin daimi ekspozisiyalarında nümayiş olunur. Bunların arasında xarici rəssamların Azərbaycan memarlıq abidələrinə aid rəsmlərini xüsusilə qeyd edə bilərik.

Muzeyin Fond şöbəsində Qrafika bölməsinin kolleksiyasına daxil olan əsərlər arasında yuxarıda qeyd olunan dövrdə rus rəssam və tədqiqatçılarının Qarabağda gördükləri və şəxsi müşahidələri əsasında təsvir etdikləri tarixi abidələrimizə aid bir neçə qrafik əsər də vardır. Bunlar İvan Pavloviç Şeblıkinin (1884-1947) "Ağdamda Pənahəli xanın türbəsinin xarabalıqları" (1928), "Füzuli rayonu Mir Əli türbəsi. (Aşağı Veysəlli kəndi)" (1930-cu illər) və Oleq Nikolayeviç Zakamennıya (1914-1968) məxsus "Qarabağ. Xocalı rayonu Əsgəran qalası" (1948), "Qubadlı rayonu Laləzar körpüsü. (Əliquluuşağı kəndi)" (1940-cı illər) adlı qrafik əsərləridir. Qafqaz xalqlarının abidələrinin araşdırılması və bərpa edilməsində böyük xidmətlər göstərən hər iki etnoqraf-rəssamın yaratdığı eskizlər və çertyojlar bu gün də yerli arxeoloqlar və bərpaçılar tərəfindən istifadə olunan etibarlı mənbələr sayılır.

İ.Şeblıkinin yaradıcılığında Qafqazın tarix-memarlıq abidələrinin təsviri olan qrafik əsərlər çoxluq təşkil edir. O, tarix-memarlıq abidələrinin qiymətləndirilməsi məqsədilə 1928-ci ildə Bakıya dəvət edilir. Burada bir sıra elmi tədqiqat müəssisələrində, muzeylərdə olur. Eyni zamanda bəzi bölgələrdə aparılan arxeoloji qazıntılarda, bərpa işlərində yaxından iştirak edir və şəxsi müşahidələri əsasında onların rəsmlərini, eskizlərini yaradır. İ.Şeblıkinin həmin rəsm və eskizləri ölkəmizin müxtəlif guşələrində çəkilib. Onlardan biri də Mir Əli türbəsidir. Füzuli rayonunun Aşağı Veysəlli kəndində hündür təpənin üzərində ucaldılmış türbənin XIV əsrdə Azərbaycan ərazisində hakimiyyətdə olan Elxanilər dövləti dövründə tikildiyi ehtimal edilir.



Abidənin kim tərəfindən nə vaxt tikildiyi barədə dolğun məlumat yoxdur. Türbənin təsviri – bütün ölçüləri kağız üzərində tuş və karandaşla verilib. Abidə konusşəkilli hündür günbəzi və sıx daşlarla hörülmüş dairəvi forması ilə Orta əsr memarlığının ən gözəl nümunələrindəndir. Rəssam bu türbəni monumental təsvir etməklə onun əzəmətini tamaşaçıya çatdırmağa çalışıb. Əsərdə abidənin aşağı hissəsinə diqqətlə baxsaq, daşların üzərində dairəvi şəkildə olan təsvirləri görə bilərik. Həmin təsvirlərin müxtəlif dövrlərdə bu ərazilərdən keçən köçərilər tərəfindən həkk edildiyi ehtimal olunur. Ermənistanın işğalı zamanı abidə vandalizmə məruz qalıb.

Rus rəssamın fırçasına xas olan daha bir qiymətli əsər isə Qarabağ xanlığının əsasını qoymuş Pənahəli xanın Ağdamdakı türbəsinin (İmarət kompleksi) təsviridir. Saray kompleksi keçən əsrlərdə bu əraziyə səyahət etmiş bir çox rəssamın marağına səbəb olub. Qeyd edək ki, 30 ilə yaxın Ermənistan silahlı qüvvələrinin tapdağı altında qalan bu kompleks də talan edilib.

Kağız üzərində tuş və qələmlə çəkilmiş əsər abidənin XX əsrin 20-ci illərinə aid olan görünüşü barədə bizdə təsəvvür yaradır. Kompleks Pənahəli xanın yay iqamətgahı hesab edilirdi. Sarayın 1730-cu illərdə inşa edildiyi ehtimal olunur. İki korpusdan ibarət, ağ daşlarla tikilmiş saray dəbdəbəli xan iqamətgahlarından çox o dövrə məxsus imkanlı adamların yaşadıqları evlərə daha çox bənzəyir. Pənahəli xanın və onun nəslinə məxsus şəxsiyyətlərin məzarları da İmarətdə yerləşən türbələrdədir. Ancaq bunu əsərdə görmək mümkün deyil. Çünki tikili rəssam tərəfindən bayırdan təsvir olunub. Əsərdə yaşıllıqlarla əhatə olunmuş imarətin bir hissəsi görünür: daşlarla hörülmüş divar, günbəz hissə və sarayın geniş uzun eyvanı. Bu abidə Qarabağ memarlıq üslubunun ilk nümunələrindəndir. Rəssamın təsvirindən də göründüyü kimi, saray baxımsız vəziyyətdə imiş.

Əsərdə daha çox maraq oyadan günbəzin yuxarı hissəsində ucaldılmış dördkünc eyvanşəkilli tikilidir. Kompozisiyanın sol hissəsində bir neçə açıq pəncərədən ibarət dəhliz nəzərə çarpır. Arxa planda olan hündür ağaclar və ön plandakı sıx yaşıllıq əsərin mərkəzində yerləşdirilmiş abidənin ümumi görünüşünü, onun möhtəşəmliyini və tarixiliyini xüsusilə vurğulayır. Belə təxmin etmək olar ki, əsər yaz-yay aylarında çəkilib.

Ümumiyyətlə, İ.Şeblikin 1937–1941-ci illərdə Azərbaycanın bir sıra tarixi abidələrinə həsr edilmiş silsilə əsərlər yaradıb və Orta əsr tikililərinə dair kitabları Bakıda nəşr olunub.

***



Abidələrimizin araşdırılması işində xidmətləri olmuş O.Zakamennıy isə Azərbaycan Sənaye İnstitutunun Memarlıq və inşaat fakültəsini 1939-cu ildə bitirib. O, Xocalı rayonu ərazisində Qarabağ xanlığının şərq qapısı sayılan Əsgəran qalasını 1948-ci ildə kağız üzərində sulu boya ilə çəkib. Əsgəran qalası XVIII əsrin sonunda Pənahəli xan və onun oğlanları Mehrəli bəy və İbrahimxəlil xanın dövrlərində inşa edilib, divarları altı bürclə möhkəmləndirilib. XIX əsrin əvvəllərinə aid olan "Qarabağnamə" salnaməsində müdafiə məqsədi daşıyan qalanın 1786-cı ildə tikilməsi barədə məlumat verilir.

Tanınmış sovet numizmatı və arxeoloqu Yevgeni Aleksandroviç Paxomovun apardığı araşdırmalar da Əsgəran qalasının XVIII əsrin sonunda tikildiyini təsdiqləyir. Dağıntılara məruz qalmış qalanın bürclərindən biri rəssam tərəfindən tam dəqiqliyi ilə çəkilib. Rəsmdə hər tərəfdən yaşıl ağac və kollarla əhatə olunan qala unikallığı ilə seçilir.

Təəssüf ki, Azərbaycanın Qarabağ bölgəsi işğal olunduqdan sonra digər abidələrimiz kimi Əsgəran qalası da vandalizmə, mənimsəməyə məruz qalıb. Ermənilər onun adını dəyişdirərək "Mayraberd" ediblər. Halbuki rus rəssamlarının təsvirlərində də abidə "Əsgəran qalası" kimi qeyd olunur və ətrafında heç bir erməni abidəsinin olmadığı aydın şəkildə görünür.

O.Zakamennıy Azərbaycan memarlığına aid daha bir nümunəni – Qubadlı rayonunun Əliquluuşağı kəndindəki Laləzar körpüsünü də təsvir edib. Əsər təxminən 1940-cı illərdə, kağız üzərində sulu boya ilə çəkilib. Rəssam Bərgüşad çayı üzərində ucaldılmış körpünün ümumi görünüşünü dağların fonunda xüsusi vurğulayıb. İkitağlı, yuxarı hissəsi düz olan körpüyə, iki tərəfdən dayağı təbii qayalar verir. Suyun sakit və hamar səthi isə tamaşaçının ruhunu oxşayır. Fonda təsvir edilmiş əzəmətli yaşıl dağlar Qarabağ memarlıq üslubunun gözəl nümunəsi sayılan Laləzar körpüsünün monumentallığını ön plana çıxardır.

Körpünün inşası ilə bağlı müxtəlif fikirlər var. Mənbələrdə onun 1867-ci ildə, yaxud XVIII əsrdə tikildiyi bildirilir. Bu abidə həm də "Əliquluuşağı körpüsü" də adlandırılır. Bu, onun eyniadlı kənddə yerləşməsi ilə bağlıdır. Bu tikili də erməni işğalı zamanı dağıntıya məruz qalıb...

Beləliklə, İ.Şeblıkin və O.Zakamennıy tərəfindən Azərbaycan ərazisində, xüsusilə də əzəli yurd yerimiz Qarabağ və Şərqi Zəngəzur bölgəsindəki abidələrlə bağlı qeydləri, rəsmləri qədim mirasımızla bağlı çox vacib gerçəklikləri ortaya qoyur. Bu nümunələr saxta tarix ustaları olan bədnam qonşularımıza veriləcək tutarlı cavab kimi də dəyərlidir.

**Aysel Salamova**
**sənətşünas**

## Xatirə təqvimi 24-28 fevral

### Azərbaycan

**24 fevral 1864** – Mütəfəkkir, yazıçı-publisist, şair, rəssam Əli bəy Molla Hüseyn oğlu Hüseynzadə (1864 – 17.03.1940) Salyanda doğulub. Bakıda "Həyat" qəzetinin, "Füyuzat" jurnalının redaktoru olub. 1910-cu ildən Türkiyədə yaşayıb, İstanbul Universitetində dərs deyib. Ə.Hüseynzadənin "türkçülük, çağdaşlıq, islam" fəlsəfəsi Azərbaycanın üçrəngli bayrağının ideoloji əsasını təşkil edir.

**24 fevral 1881** – Görkəmli şair, yazıçı Abdulla Şaiq (Abdulla Mustafa oğlu Talıbzadə; 1881 – 24.7.1959) anadan olub. Azərbaycan uşaq ədəbiyyatına böyük töhfələr verib. "Gülzar", "Milli qiraət kitabı" və s. dərsliklər, uşaqlar üçün pyeslər yazıb, ali məktəblərdə ədəbiyyat tarixindən dərs deyib.

**24 fevral 1922** – Teatrşünas, sənətşünaslıq namizədi Adilə Mirzə qızı İsmayılova (1922 – 24.11.1985) Bakıda anadan olub. Azərbaycan Teatr İnstitutunun (indiki Mədəniyyət və İncəsənət Universiteti) prorektoru işləyib.

**24 fevral 1933** – Tanınmış aktyor Bahadur Atabala oğlu Əliyev (1933-2002) Masallı rayonunun Sığıncaq kəndində anadan olub. "Ulduz", "Böyük dayaq" və s. filmlərdə çəkilib, filmlərin səsləndirilməsində iştirak edib.

**24 fevral 1934** – Xalq rəssamı, professor Cəmil Mir Yusif oğlu Müfidzadə (1934 – 20.12.2019) Naxçıvan MR Ordubad rayonunda anadan olub. "İçərişəhər", "Abşeron nefti", "Xınalıq", "Misir təəssüratları" və s. silsilə əsərlərin müəllifidir.

**24 fevral 1941** – Əməkdar mədəniyyət işçisi, musiqişünas Sidqi Mustafayev (1941 – 12.4.2021) Bakının Balaxanı kəndində doğulub. "İrs" folklor ansamblının yaradıcılarından biri və uzun illər bədii rəhbəri olub.

**24 fevral 1944** – Əməkdar incəsənət xadimi, rejissor Tariyel Təyyar oğlu Vəliyev (1944 – 24.4.2012) İmişli rayonunda doğulub. Azərbaycan Televiziyasında məşhur tamaşalara ("Səni axtarıram", "Evləri köndələn yar", "Yaşıl eynəkli adam" və s.) quruluş verib.

**24 fevral 2022** – Əməkdar incəsənət xadimi, televiziya diktoru, rejissor Arif Lətif oğlu Qazıyev (17.5.1938 – 2022) vəfat edib. Musiqili telefilmlərin ("Şur", "Təsnif") müəllifidir.

**25 fevral 1910** – Tanınmış rəssam Rüstəm Məmmədhənifə oğlu Mustafayev (1910 – 19.7.1940) anadan olub. Azərbaycanda teatr-dekorasiya sənətinin yaradıcılarından sayılır. "Koroğlu" operasının ilk quruluşunun (1937) bədii tərtibatını verib. Bakı Türk İşçi, Akademik Dram teatrlarında çalışıb. Milli İncəsənət Muzeyi rəssamın adını daşıyır.

**25 fevral 1929** – Əməkdar incəsənət xadimi, qoboy ifaçısı, pedaqoq Azər Canbaxış oğlu Abdullayev (1929 – 18.6.2010) Bakıda doğulub. Azərbaycan Dövlət Simfonik Orkestrinin solisti, Azərbaycan Dövlət Konservatoriyasında (indiki BMA) Nəfəs və zərb alətləri kafedrasının müdiri olub.

**25 fevral 1948** – Əməkdar rəssam Fikrət Məmməd oğlu Haşımov (1948 – 8.2.2022) Naxçıvan MR Şahbuz rayonunda doğulub. İki əsəri Moskvada Tretyakov Qalereyasında saxlanılır. Türkiyədə pedaqoji fəaliyyət göstərib. Bakıda İncəsənət Kollecinin direktoru olub.

**25 fevral 2022** – Görkəmli xanəndə, Xalq artisti Əlibaba Balaəhməd oğlu Məmmədov (5.2.1930 – 2022) vəfat edib. Milli muğam sənətinin inkişafına dəyərli töhfələr verib, mahnı və təsniflərin müəllifidir.

**26 fevral 1892** – Məşhur musiqiçi Leopold Vitoldoviç Rostropoviç (1892 - 31.7.1942) Rusiyanın Voronej şəhərində doğulub. 1925-ci ildə ailəsi ilə Bakıya köçüb, 1931-ci ilədək burada yaşayıb, Konservatoriyanın professoru kimi pedaqoji fəaliyyət göstərib. Azərbaycanda ilk simli kvartetin yaradıcılarından biri olub.

**26 fevral 1927** – Aktyor, rejissor, teatr təşkilatçısı Ələkbər Süheyli (Ələkbər Fərəculla oğlu Əliyev; 1879-1927) vəfat edib. Akademik Dram Teatrında, Bakı Türk İşçi Teatrında çalışıb. Milli aktrisaların olmadığı illərdə qadın rollarını oynayıb.

**27 fevral 1901** – Xalq yazıçısı Əli Qara oğlu Vəliyev (1901 – 2.2.1983) Zəngəzur qəzasının (indiki Ermənistanın Sisyan rayonu) Ağudi kəndində anadan olub. 1918-ci ildə ailəsi Qubadlı rayonuna köçüb. Mətbu orqanlarda çalışıb. "Nənəmin cəhrəsi", "Qarlı dağlar", "Ürək dostları", "Anaqız", "Ötən günlər" və s. kitabların müəllifidir.

**27 fevral 1984** – Aktyor, rejissor Eldar Həsən oğlu Əliyev (1936-1984) vəfat edib. "Dəli Kür", "Mən ki gözəl deyildim" və s. filmlərdə çəkilib, Dövlət Rus Dram Teatrında çalışıb.

**28 fevral 1894** – Xalq artisti Mustafa Həşim oğlu Mərdanov (1894 – 28.12.1968) Cənubi Azərbaycanın Mərənd şəhərində doğulub. Tiflisdə Azərbaycan teatrında, Bakıda Akademik Milli Dram Teatrında çalışıb. "O olmasın, bu olsun", "Əhməd haradadır?", "Qanun naminə" və s. filmlərdə çəkilib. Azərbaycan Teatr Cəmiyyətinə rəhbərlik edib.

**28 fevral 1908** – Tanınmış türkoloq, filologiya elmləri doktoru Hadi İsmayıl oğlu Mirzəzadə (1908-1965) Bakıda anadan olub.

**28 fevral 1918** – Xalq artisti Sofiya Bəşir qızı Bəsirzadə (Vəzirova; 1918 – 4.1.2000) Kazan şəhərində doğulub. 1938-ci ildən Akademik Dram Teatrının aktrisası olub, 1993-cü ildən Bakı Bələdiyyə Teatrında çalışıb. "Şərikli çörək", "Romeo mənim qonşumdur", "Yol əhvalatı" və s. filmlərdə çəkilib.

**28 fevral 1940** – Əməkdar incəsənət xadimi, rəssam Kamal Əhməd oğlu Əhmədov (1940 – 29.11.1994) anadan olub. Çoxfiqurlu tablo və portretlər, mənzərə və natürmortlar, abstrakt kompozisiyaların müəllifidir.

**28 fevral 1944** – Əməkdar artist, tanınmış müğənni Nəzakət Əli qızı Məmmədova (1944 – 21.10.1980) Gəncə şəhərində doğulub. Opera və Balet Teatrının solisti olub.

### Dünya

**24 fevral 1786** – Alman yazıçısı, folklorşünas-filoloq Vilhelm Qrim (Wilhelm Karl Grimm; 1786-1859) anadan olub. Qardaşı Yakob Qrim (1785-1863) ilə birlikdə alman nağılları toplusunu tərtib edib.

**25 fevral 1707** – İtalyan dramaturqu Karlo Qoldoni (Carlo Goldoni; 1707-1793) anadan olub. 200-dən çox pyes yazıb.

**25 fevral 1841** – Fransız rəssamı, qrafik və heykəltəraş, impressionizmin banilərindən biri Pyer Ogüst Renuar (Pierre-Auguste Renoir; 1841-1919) anadan olub.

**25 fevral 1871** – Ukrayna ədəbiyyatının klassiki, yazıçı, şairə Lesya Ukrainka (Larisa Petrovna Kosaç-Kvitka; 1871-1913) anadan olub.

**25 fevral 1907** – Türk yazıçısı və şairi Səbahəddin Əli (1907-1948) Ədirnə vilayətində doğulub. "Kuyucaklı Yusif", "İçimizdəki şeytan" və s. romanların müəllifidir.

**26 fevral 1564** – İngilis şairi və dramaturqu Kristofer Marlo (Christopher Marlowe; 1564-1593) anadan olub.

**26 fevral 1802** – Fransız yazıçısı, şair, dramaturq Viktor Hüqo (Victor-Marie Hugo; 1802 – 22.5.1885) anadan olub. "Səfillər", "Gülən adam", "Paris Notr-Dam kilsəsi" və s. romanların müəllifidir.

**27 fevral 1902** – Amerika yazıçısı, ədəbiyyat üzrə Nobel mükafatı (1962) laureatı Con Steynbek (John Ernst Steinbeck; 1902 – 20.12.1968) anadan olub. Əsərləri: "Qəzəb salxımları", "Edemdən şərqə", "Siçanlar və insanlar haqqında" və s.

**27 fevral 1912** – İngilis şairi və yazıçısı Lourens Darrel (Lawrence Durrell; 1912-1990) anadan olub. Qardaşı Cerald Darrellə birlikdə heyvanlar haqqında məşhur əsərlərin müəllifidir.

**27 fevral 1932** – Amerika aktrisası Elizabet Teylor (Elizabeth Rosemond Taylor; 1932 – 23.3.2011) anadan olub. İki dəfə "Oskar" mükafatına layiq görülüb.

**28 fevral 1892** – Müasir Türkiyə teatrının qurucularından biri, kino aktyoru və rejissoru Mühsin Ertuğrul (1892-1979) anadan olub.

**28 fevral 1893** – SSRİ Xalq artisti, kinorejissor Vsevolod Pudovkin (1893-1953) anadan olub. Kinematoqrafiyaya dair əsərlərin müəllifidir, bir çox rejissorların (o cümlədən azərbaycanlı) müəllimi olub.

**Hazırladı: V.Orxan**

# UNESCO-da Beynəlxalq Ana Dili Günü qeyd edilib




## Azərbaycan da təmsil olunub

Parisdə UNESCO Katibliyinin və Banqladeşin UNESCO yanında Daimi Nümayəndəliyinin birgə təşkilatçılığı ilə 21 fevral – Beynəlxalq Ana Dili Günü qeyd olunub.

Qurumun mənzil-qərargahında keçirilən tədbirdə Azərbaycan da daxil olmaqla 22 ölkənin daimi nümayəndəliyi iştirak edib.

UNESCO baş direktorunun təhsil üzrə müavini Stefania Ciannini çıxış edərək ana dili, yerli dillərin qorunmasının vacibliyi, ana dilinə əsaslanan təhsildən danışıb. Qeyd edib ki, dünyada danışılan 6700-dən çox dilin ən azı 40 faizi uzunmüddətli perspektivdə yox olmaq təhlükəsi ilə üzləşə bilər.

İştirakçı ölkələrin UNESCO yanında daimi nümayəndəliklərinin Beynəlxalq Ana Dili Günü münasibətilə hazırladıqları videolar yayımlanıb. Hər ölkənin təqdimatı ana dillərində "Mən öz ana dilimdə danışıram, mən öz ana dilimi sevirəm" şüarı altında gerçəkləşib.

Tədbir çərçivəsində ölkələr musiqi, poeziya, rəqs vasitəsilə mədəniyyətlərini təqdim ediblər. Azərbaycan Respublikasının UNESCO yanında Daimi Nümayəndəliyinin təqdimatına "Uzundərə" xalq rəqsimiz rəng qatıb.

Beynəlxalq Ana Dili Günü UNESCO tərəfindən 1999-cu ildə Banqladeşin təşəbbüsü ilə elan edilib. Bu günün tarixi 1952-ci il fevralın 21-də Banqladeşin Benqal şəhərində öz ana dilinin rəsmi dil olması uğrunda mübarizə aparan (o vaxt Banqladeş Pakistanın tərkibində idi) dörd tələbənin öldürülməsi ilə bağlıdır. Həmin hadisəni ana dili uğrunda mübarizənin təcəssümü olaraq bəşəriyyətin yaddaşında yaşatmaq üçün bu gün təsis olunub.

# Qlobal Aşpazlar Müsabiqəsindən üç medal

Yenidən formalaşdırılan Azərbaycan milli kulinariya komandası ilk dəfə Qlobal Aşpazlar Müsabiqəsinə qatılıb və üç bürünc medal qazanıb.

Dövlət Turizm Agentliyindən (DTA) bildirilib ki, azərbaycanlı aşpazlar Dünya Kulinariya Cəmiyyətləri Birliyinin ("Worldchefs") təşkil etdiyi Qlobal Aşpazlar Müsabiqəsinin Avropa üzrə yarımfinalında – İtaliyanın Rimini şəhərində keçirilən "Avropa Qraprisi – 2023"də fərqləniblər.

DTA-nın dəstəyi ilə yarışmaya qatılan aşpazlar dörd kateqoriya üzrə çıxış ediblər. Baş aşpaz




Sərxan Məmmədov və köməkçi aşpaz Abdulla Abdullayev "Qlobal usta aşpazlar müsabiqəsi" kateqoriyasında, baş qənnadçı Gülnar Rəsulova və köməkçi Zinyət Axundova "Qlobal şirniyyat hazırlanması üzrə aşpaz" kateqoriyasında, baş aşpaz Nicat Babayev və köməkçi Leyla Vəliyeva isə "Qlobal veqan aşpaz" kateqoriyası üzrə bürünc medal əldə ediblər.

Bu nailiyyət sayəsində Azərbaycan komandası Sinqapurda keçiriləcək "Dünya aşpazları konqresi – 2024"ün final mərhələsinə vəsiqə qazanıb.

Kulinarlar yarışmasının keçirildiyi Rimini Ekspo Mərkəzində "Qarabağ, Şuşa" mövzusunda milli turizm brendinə əsasən destinasiya məlumat stendi də quraşdırılıb.

# Fələstində qurğuşun sarkofaqın, Misirdə isə "Qızıl oğlan"ın sirləri açılır



Fələstində, Qəzza zolağında çalışan arxeoloqlar tərəfindən Roma dövrünə aid 2 min illik tarixi olan qurğuşunla örtülmüş sarkofaq aşkar edilib. Qəzzanın şimal sahili boyunca dənizdən 500 metr məsafədə yerləşən sarkofaq keçən il aşkar edilmiş böyük Roma nekropolunun bir hissəsidir.

Qazıntı layihəsi INTIQAL proqramı vasitəsilə Qəzzada bu cür mühafizə layihələrini dəstəkləyən "Première Urgence Internationale" fransız humanitar təşkilatının nəzarəti altında həyata keçirilir. Layihəyə "British Council" da maliyyə dəstəyi verir.

Sahəsi təxminən 3500 kvadratmetr olan nekropolda ümumilikdə 90-a yaxın fərdi və toplu məzar tapılıb, lakin alimlər qurğuşun sarkofaqın dövrün görkəmli şəxsinə məxsus olduğunu ehtimal edirlər. Britaniyanın "Antiquities" hərəkatı proqramından Laura Burnett bildirib ki, Roma dövründə də, sonrakı əsrlərdə olduğu kimi, qurğuşun tabutlar dəfn üçün "zərif və bahalı" bir üsul hesab edilib.

Sarkofaqın açılması və ekspertlər tərəfindən müayinəsi, tapıntının təhlili təxminən iki ay çəkəcək.

***

Qədim Misirdə dəfn mərasimləri barədə yeni informasiyalar əldə etməyə imkan verə biləcək tapıntılar bu yaxınlaradək Qahirədəki Misir Muzeyinin zirzəmilərində gizli şəkildə qalıb. Ölkənin cənubunda yerləşən Naq əl-Hassay məzarlığında 1916-cı ildə tapılan yeniyetmə oğlanın mumiyası da indiyədək tədqiq olunmayıb.

Mumiyanın kompüter tomoqrafiyası vasitəsilə bu yaxınlarda aparılan təkrar analizi zamanı məlum olub ki, onu qızıldan olan 49 amulet və digər qiymətli bəzək əşyaları, habelə qızıl maska ilə dəfn ediblər. "Grunge" nəşri qeyd edib ki, indi onu "Qızıl oğlan" adlandırırlar.

Naq əl-Hassay məzarlığı təxminən eramızdan əvvəl 332-30-cu illərə aiddir. Tədqiqatçılar ehtimal edirlər ki, "Qızıl oğlan" 2300 il



bundan əvvəl 14-15 yaşında vəfat edib. Ölüm vaxtı onun sümüklərinin vəziyyəti və "ağıl" dişinin çıxmaması da bunu təsdiq edir.

Qahirə Universitetinin radiologiya üzrə professoru Sahar Salim "Qızıl oğlan" haqqında tədqiqat əsərində meyitin balzamlaşdırılması prosesini də təsvir edib. Balzamlayan şəxslər mumiyalama vaxtı dua edib və amuletləri mumiyanın içərisində yerləşdiriblər. "Qızıl oğlan"ı qıjıya bürüyüblər və bunun əsas səbəbi qədim misirlilərin bəzi bitkilərin və çiçəklərin sehrli gücünə inanmaları olub.

Hazırda "Qızıl oğlan" Qahirədəki Misir Muzeyində nümayiş olunur. Sərgidə onun kompüter şəkilləri də təqdim edilir.




## Zamanın səhifələrində qalan olaylar, faktlar...

### 175 il əvvəl...

**24 fevral 1848-ci ildə** Fransada növbəti burjua inqilabı nəticəsində Kral Lui-Filipp taxtdan salınıb. İkinci Fransa Respublikasının yarandığı elan edilib.

### 112 il əvvəl...



**28 fevral 1911-ci ildə** Bakıda Opera Teatrının (indiki Akademik Opera və Balet Teatrı) açılışı olub. Açılış gecəsində M.Musorqskinin "Boris Qodunov" operası oynanılıb. 1928-ci ildə sənət ocağı Dövlət Böyük Opera Teatrı, 1934-cü ildə M.F.Axundzadə adına Opera və Balet Teatrı adlandırılıb.

### 106 il əvvəl...

**27 fevral 1917-ci ildə** Rusiyada Fevral (burjua) inqilabı başlanıb. Petroqradda (Sankt-Peterburq) silahlı toqquşmalar nəticəsində hakimiyyət iflic olub. Martın 2-də Çar II Nikolay taxt-tacdan imtina etməyə məcbur oldu. Üç əsr sürən Romanovlar sülaləsinin mütləqiyyəti sona çatdı. Müvəqqəti hökumət quruldu.

### 102 il əvvəl...

**25 fevral 1921-ci ildə** Cənubi Qafqaza yürüşünü davam etdirən bolşevik Rusiyasının ordu hissələri Azərbaycan və Ermənistandan sonra Gürcüstanda da sovet hakimiyyətini elan edib. 1918-1921-ci illərdə fəaliyyət göstərmiş Gürcüstan Respublikasının mövcudluğuna son qoyulub.

**26 fevral 1921-ci ildə** Sovet Rusiyası ilə İran arasında diplomatik münasibətlər haqqında müqavilə imzalanıb. Müqavilədə Xəzərdən istifadə haqqında bənd də yer almışdı. Çar Rusiyasının İrana tətbiq etdiyi əsas qadağalar (o cümlədən Xəzərdə hərbi donanma saxlamağa qadağa) yeni müqavilədə qüvvədə qalmışdı.

### 97 il əvvəl...

**26 fevral 1926-cı ildə** Bakıda Birinci Türkoloji Qurultay açılıb. Martın 6-dək davam edən qurultayda Sovet İttifaqı və xarici ölkələrdən 100-dən çox nümayəndə iştirak edib. SSRİ-də yaşayan türkdilli xalqların əksəriyyətinin təmsil olunduğu qurultayda latın qrafikalı yeni əlifbaya keçidin prinsipləri də işlənib hazırlanmışdı.

### 37 il əvvəl...

**28 fevral 1986-cı ildə** İsveçin Baş naziri Ulof Palme Stokholmda həyat yoldaşı ilə kinoteatrdan evinə piyada qayıdarkən qətlə yetirilib. Qətllə bağlı bir neçə nəfər cinayət məsuliyyətinə cəlb edilsə də, icraçı və sifarişçisini müəyyən etmək mümkün olmadı, 2020-ci ildə işə xitam verildi.

### 35 il əvvəl...

**27 fevral 1988-ci ildə** Sumqayıtda erməni ekstremistlərin və bir qrup kriminal elementin iştirakı ilə kütləvi təxribat törədilib. Moskvadan gələn istintaq qrupu hadisənin mahiyyətini örtbasdır etdi. "Sumqayıt olayları" SSRİ xüsusi xidmət orqanlarındakı ermənilər tərəfindən hazırlanmışdı və azərbaycanlıları ermənilərə düşmən kimi dünyaya tanıtmaq, Qarabağda başlanan separatçılığa haqq qazandırmaq məqsədi daşıyırdı. Bandit dəstəyə başçılıq edən Eduard Qriqoryana məhkəmə 12 il iş verdi, amma o, SSRİ dağılandan sonra azadlığa çıxdı.

### 31 il əvvəl...

**26 fevral 1992-ci ildə** erməni silahlı dəstələri Xankəndi (Stepanakert) şəhərindəki keçmiş sovet ordusunun 366-cı alayının erməni zabitlərinin də iştirakı ilə Azərbaycanın Qarabağ bölgəsindəki Xocalı şəhərində soyqırımı törədiblər. 613 nəfər azərbaycanlı, o cümlədən 63 uşaq, 106 qadın və 70 qoca vəhşiliklə qətlə yetirilib. Şəhərin 1275 sakini əsirlik dəhşətini yaşadıqdan sonra azadlığa buraxılıb. 150 nəfərin aqibəti naməlum olaraq qalıb.

**28 fevral 1992-ci ildə** Azərbaycan Respublikası ABŞ və Hindistanla diplomatik münasibətlər qurub. ABŞ Azərbaycanın müstəqilliyini 1991-ci il dekabrın 25-də, Hindistan isə dekabrın 26-da tanımışdı.

### 30 il əvvəl...



**28 fevral 1993-cü ildə** erməni terror qrupunun Rusiyanın Şimali Qafqaz dəmiryolunda – Qudermes stansiyası (Çeçenistan) yaxınlığında Kislovodsk-Bakı sərnişin qatarını partlatması nəticəsində 11 nəfər həlak olub, 18 nəfər yaralanıb.

**Hazırladı: V.Orxan**

# Bakıda "Yapon küləyi"

Yaponiyanın Azərbaycandakı Səfirliyinin təşkilatçılığı ilə fevralın 22-də Beynəlxalq Muğam Mərkəzində "KUNI-KEN" Şamisen rok qrupunun konserti keçirilib.



"Yapon küləyi" tədbirlər silsiləsi çərçivəsində keçirilən konsertdən əvvəl Yaponiyanın ölkəmizdəki səfiri Vada Cuniçi qrup haqqında məlumat verib. Qeyd edib ki, bu ilin fevral-mart aylarında Yaponiya səfirliyi Azərbaycanda "Yapon küləyi" adlı silsilə tədbirlər keçirir: "Bununla ölkənizin sakinlərinin Yaponiya mədəniyyəti və adət-ənənələri ilə tanış olmaq imkanı yaranıb. Bakı küləklər şəhəri olduğuna görə Yaponiya ilə bağlı mədəniyyət tədbirləri də burada həzin küləklər kimi əsir. "KUNI-KEN" Şamisen qrupunun üzvləri olan Kuniaki və Kenci qardaşları dünyanın bir çox ölkələrində konsertlər veriblər. İndi isə onlar Bakı səhnəsindədir".

Yaponiya ilə Azərbaycan arasında mehriban münasibətlərin, qarşılıqlı hörmət və etimadın qurulmasının təqdirəlayiq olduğunu bildirən səfir ikitərəfli münasibətlərin yüksələn xətlə inkişaf etdiyini vurğulayıb.

Sonra Mie prefekturasının Yokkaiçi şəhərindən olan Kuniaki və Kenci qardaşları özünəməxsus ifaları ilə tamaşaçıların qarşısında çıxış ediblər.

Qeyd edək ki, dünyanın bir çox ölkələrində çıxış edən qrupun ifaçıları 2016-cı ildən Yokkaiçi şəhərinin turizm səfiri kimi də fəaliyyət göstərirlər.

# Gənc şairlər Macarıstanda mükafata layiq görülüblər

Beynəlxalq Türk Mədəniyyəti Təşkilatı – TÜRKSOY və Macarıstan Respublikasının təşkilatçılığı ilə görkəmli macar şairi Şandor Petofinin (1823-1849) 200 illiyi münasibətilə şeir tərcüməsi müsabiqəsi keçirilib.




Beynəlxalq müsabiqənin qalibləri arasında azərbaycanlı şairlər Ramil Əhməd və Cavid Mövsümü də var.

Bu barədə məlumat verən R.Əhməd bildirib ki, müsabiqədə Azərbaycan, Türkiyə, Qazaxıstan, Qırğızıstan, Özbəkistan və Türkmənistandan şairlər, tərcüməçilər iştirak ediblər.

Mükafat martın 15-də Budapeşt şəhərində təqdim ediləcək. Müsabiqə çərçivəsində tərcümə olunan şeirlər kitab halında nəşr olunacaq.

# Odisseyin "Qayıdış"ı

## Homerin eposu əsasında yeni film çəkiləcək

Əfsanəvi yunan şairi Homerə aid edilən "Odisseya" epik poeması əsasında yeni film çəkiləcək. Bu dəfə mövzuya italiyalı rejissor Uberto Pazolini girişəcək.



"Qayıdış" adı verilən filmin ssenarisini Con Kolli və Edvard Bond yazıblar. Kinolayihə hələ 2022-ci ilin aprelində anons olunsa da, çəkilişlərə 2024-cü ildə başlanılacağı bildirilir.

Yunanıstanda çəkiləcək filmdə əsas rolları ingilis aktyor Reyf Fayns və fransız aktrisa Jülyett Binoş oynayacaqlar. Onlar 9 "Oskar" mükafatı qazanmış "İngilis pasiyenti" (1996, rejissor Entoni Mingella) filmində tərəf-müqabil olublar.

Ekran əsəri İtaliya, Yunanıstan, Böyük Britaniya və Fransanın birgə istehsalı olacaq. Prodüser Ceyms Kleytonun sözlərinə görə, belə "Odisseya"nı kinosevərlər hələ görməyiblər. Filmdə tanrılar və bədheybətlər əhatəsindəki mifik qəhrəman deyil, illərin travmasını özündə daşıyan döyüşçü obrazı təsvir olunacaq. Baş qəhrəman Odissey 20 ildən sonra doğma adaya geri dönür, indi onu yeni sınaqlar gözləyir. O, yaxınlarını xilas etmək üçün yenidən zorakılığa əl atmağa məcburdur.

Qeyd edək ki, Homerin "Odisseya"sı kino sənəti meydana çıxandan bəri dəfələrlə bədii, eləcə də animasiya filmlərinin mövzusu olub. İlk kino nümunəsi 1911-ci ildə İtaliyada lentə alınıb. Bu silsilədə italyan rejissor Mario Kamerininin 1954-cü ildə çəkdiyi film və rus rejissor Andrey Konçalovskinin Hollivudda işləyərkən 1997-ci ildə ekranlaşdırdığı ikiseriyalı "Odisseya" (çəkilişlərin bir hissəsi Türkiyədə aparılmışdı) daha çox məşhurdur.

**V.Kamal**

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri

MƏDƏNİYYƏT

Qəzet 1991-ci ilin yanvarından çıxır

**Baş redaktor:** Vüqar Əliyev

**Ünvan:** AZ 1012, Bakı şəhəri, Moskva prospekti 1D
Dövlət Film Fondu, 5-ci mərtəbə

**Telefon:** (012) 431-28-79 (baş redaktorun müavini)
431-57-72 (redaktor)
430-16-79 (müxbirlər)
530-34-38 (mühasibatlıq, yayım)
**E-mail:** qazet@medeniyyet.az
**Lisenziya №** AB 022279. **İndeks:** 0187. **Qiyməti:** 60 qəpik

"Mədəniyyət" qəzetinin kompüter mərkəzində səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.
**Tiraj:** 5050. **Sifariş:** 555
**Buraxılışa məsul:** Fariz Yunisli

Yazılardakı faktlara görə müəlliflər cavabdehdir.
Qəzetdə AZƏRTAC-ın materiallarından da istifadə edilir.

**Bank rekvizitləri:**
Kapitalbank 1 saylı Yasamal filialı
**Kod:** 200037. **VÖEN:** 9900003611. **SWIFT:** AIIBAZ2XXXX
**Müxbir hesab:** AZ37NABZ01350100000000001944

MADANIYYAT QAZETI REDAKSIYASI
**H/Hesab:** AZ98AIIB33080019443300232103. **VÖEN:** 1300338641